QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 187 (5418) 14 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar

*İlham Əliyev: "Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var"*

Səh 2



**2003-cü ilin 15 oktyabrı Azərbaycanda yeni dövrün və inkişafın əsası qoyulan gündür** 6



**Belarus və Azərbaycan parlamentləri ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verə bilərlər** 5



**Bakıdan Naxçıvana dəmir yolu xətti yaradılacaq** 9



**"Beynəlxalq təşkilatlarda ölkələrə qarşı hücumlar siyasi təzyiq aləti, mənfəət oyunudur"** 5



**"Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır"** 8



**Bakıdan Gəncəyə sürət qatarı ilə sərnişinlər təxminən 4 saata çata biləcəklər** 7



5 **"Avropa təsisatlarında düşüncə tərzi, yanaşma ciddi şəkildə dəyişməlidir"**



11 **Yaxın günlərdə Almaniya, İsrail və Qətərə nar şirəsinin ixracına başlanılacaq**



16 **Millimizin üzvü "Qalatasaray"da!**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 oktyabr 2017-ci il

# Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar

## İlham Əliyev: "Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var"



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin oktyabrın 13-də rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Bolqarıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bolqarıstan Prezidenti Rumen Radevi və xanımı Desislava Radevanı qarşıladılar. Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Prezidentinə raport verdi. Bolqarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Oktyabrın 13-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, humanitar, energetika sahələrində və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bolqarıstan Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.



AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış edib:**

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Çox şadam ki, ölkəmizə səfərə gəlmisiniz. Nyu-Yorkda BMT Baş Assambleyasının iclasında qısa görüşümüz olub. Dəvəti qəbul edib Azərbaycana səfərə gəldiyinizə görə minnətdaram. Bu, ölkəmizə Sizin ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaq.

*Ardı Səh. 3*

# Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar

## *İlham Əliyev: "Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var"*



Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər. **AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyev bəyanatla çıxış edib:**

-Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Mən çox şadam ki, Siz mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmisiniz. Səfərin çox böyük əhəmiyyəti var və əminəm ki, çox gözəl nəticələri də olacaq.

Bu gün həm təkbətək formatda, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşlərdə biz Bolqarıstan-Azərbaycan əlaqələrinin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha təsdiqlədik ki, Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var. İki il bundan əvvəl biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzaladıq və əslində, bu Bəyannamənin adı özlüyündə bir göstəricidir. Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar. Siyasi əlaqələrimiz ən yüksək səviyyədədir və bu gün əsas müzakirə mövzusu iqtisadi, nəqliyyat, energetika, turizm sahələrində və digər sahələrdə əməkdaşlığa əsaslanırdı. Bu sahədə böyük perspektivlər ola bilər. Təbii ki, qarşılıqlı ticarət dövriyyəsinin həcmi bizi qane edə bilməz. Bugünkü görüşdə müvafiq göstərişlər verilib ki, aidiyyəti orqanlar ticarət dövriyyəsinin artması ilə bağlı konkret təkliflər təqdim etsinlər.

Eyni zamanda, bu gün mən Prezidentə məlumat verdim ki, onun səfəri ərəfəsində göstəriş verilib, AZAL - Azərbaycan Hava Yolları şirkəti Bakıdan Sofiyaya birbaşa təyyarə uçuşlarını təşkil edəcək. İndi hazırlıq işləri gedir.

Ardı Səh. 4

Əvvəli-Səh-2

Tərəfdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı bu gün artıq fikir mübadiləsi apardıq. Əminəm ki, bölüşdüyümüz ideyalar ölkələrimiz arasında daha geniş əməkdaşlığa yol açacaq. Siyasi və iqtisadi sahələrdə əməkdaşlığın səviyyəsindən məmnunuq. Lakin əminəm ki, iqtisadi sahədəki potensialımız bu gün mövcud olan potensialdan daha üstündür. Bu cür yaxşı siyasi münasibətlərə malik olmaqla yanaşı, biz ticarət, investisiya sahələrinə və digər sahələrə də diqqət yetirməliyik. Nəticədə tərəfdaşlığımız daha da genişlənəcək və şaxələnmiş olacaq. Bolqarıstan bizim üçün çox sıx tərəfdaşdır, dost ölkədir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik. Səfəriniz bir daha göstərir ki, biz yaxın dostuq və əməkdaşlığımız uğurla davam edəcək. Sizə Azərbaycanda xoş səfər arzulayıram. Bir daha ölkəmizə xoş gəlmisiniz.

**Bolqarıstan Prezidenti Rumen Radev:**

-Cənab Prezident, əvvəlcə, icazə verin dəvətə və gözəl ölkənizə səfər etmək imkanına görə nümayəndə heyətim adından Sizə təşəkkürümü bildirim.

Ölkələrimizin rəhbərliyi arasında müzakirələrin aparılması və dialoqun davam etdirilməsi üçün burada olmağımızdan şadıq. Hesab edirik, siyasi dialoqun intensivliyi göstərir ki, xalqlarımız və ölkələrimiz arasında çox yaxşı münasibətlər var. Bununla belə, Siz də qeyd etdiyiniz kimi, siyasi dialoqun səviyyəsi əməkdaşlığımızın bir çox digər sahələrdə inkişafı üçün yaxşı şərait yaradır. İndicə iqtisadi və enerji əməkdaşlığını, imkanlarını və potensialını müzakirə etdik. Biz Cənub Qaz Dəhlizinə dəstək veririk. Azərbaycan Şərqi və Mərkəzi Avropada şaxələndirmə imkanlarının təmin edilməsində mühüm rol oynayır. Buna görə, biz həmin layihəyə dəstəyimizi veririk. Daşımalar, nəqliyyat dəhlizinin yaradılması ilə bağlı çox böyük potensial var. Biz, həmçinin ölkələrimiz üçün vacib olan Bakı ilə Sofiya arasında birbaşa uçuşları müzakirə etdik. Əgər həmin hava xəttini aça bilsək, bütün digər sahələrin inkişafına töhfə vermiş olacağıq.



# Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar

## *İlham Əliyev: "Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var"*





Əvvəli-Səh-3

Əminəm ki, bütün danışıqlar uğurla nəticələnəcək və tezliklə Bakıdan Sofiyaya, Sofiyadan Bakıya təyyarə reysləri açılacaq. Mən bunu da səfərin gözəl nəticəsi kimi qiymətləndirirəm.

Əlbəttə, bu gün biz energetika sahəsindəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu sahədə də strateji tərəfdaşıq. Bolqarıstan Cənub Qaz Dəhlizinin üzvüdür. Bolqarıstan Bakıda bir neçə dəfə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasında həmişə yüksək səviyyədə təmsil olunmuşdur və Cənub Qaz Dəhlizinin icrası ölkələrimizi bir-birinə daha da yaxın edəcək. Bu, nəhəng transmilli layihədir. Cənub Qaz Dəhlizinin maliyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir. Azərbaycanın nəhəng "Şahdəniz" yatağından qaz Avropa ölkələrinə, region ölkələrinə, o cümlədən Bolqarıstana çatdırılacaq. Əminəm ki, Azərbaycan qazı Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində öz rolunu oynayacaq.

Bununla paralel olaraq, bu gün biz energetika sahəsində, xüsusilə qaz sahəsində növbəti əməkdaşlıq planları haqqında fikir mübadiləsi apardıq. Bir halda ki, Azərbaycan qazı bir neçə ildən sonra Bolqarıstan bazarına çatdırılacaq, əlbəttə, gələcək əməkdaşlıq üçün də çox yaxşı imkanlar açılacaq.

Mən Prezidenti məlumatlandırdım ki, Bakı-Tbilisi-Qars dəmir yolu yaxın vaxtlarda istifadəyə veriləcək. Bu da tarixi layihədir və əminəm ki, Bolqarıstan da bu layihədə fəal iştirak edəcək. Bu layihə bütün ölkələr, o cümlədən dəmir yolu boyu yerləşən ölkələr üçün yeni imkanlar açacaq. Əlbəttə ki, biz humanitar sahədə əməkdaşlıq haqqında da danışdıq. Bu sahə həm Bolqarıstan, həm də Azərbaycan üçün çox önəmlidir. İnsanlararası əlaqələr, humanitar əməkdaşlıq, təhsil sahəsində əməkdaşlıq, əlbəttə ki, əlaqələrimizin möhkəm zəminini daha da gücləndirəcək.

Bir sözlə, qeyd etdiyim məsələlər artıq əyani şəkildə göstərir ki, bizim əməkdaşlığımız çoxşaxəlidir və çox uğurludur. Prezidentin səfəri bu sözlərimi bir daha təsdiqləyir. Cənab Prezident, Sizi bir daha salamlayıram və Sizə ən xoş arzularımı bildirirəm.

X X X

**Sonra Prezident Rumen Radev bəyanatla çıxış edib:**

Hörmətli cənab Prezident. Xanımlar və cənablar.

Azərbaycana ilk rəsmi səfərimdən məmnunam. Öz adımdan və Bolqarıstan nümayəndə heyətinin adından Prezident İlham Əliyevə dəvətə, gözəl ölkənizə gəlmək və bu gün baş tutan məzmunlu, konstruktiv danışıqlar aparmaq imkanına görə böyük təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Respublikası və Bolqarıstan Respublikası dost, uzunmüddətli siyasi, mədəni və mənəvi əlaqələr bazasında tərəfdaş ölkələrdir. Bu gün Prezident Əliyev ilə biz əlaqələrin mümkünlüyünü, həm də uzun illər həyata keçirilən intensiv siyasi və iqtisadi dialoqu təsdiq etməklə yanaşı, həm də əməkdaşlığın inkişafı, dərinləşməsi üçün ölkələrimiz arasında münasibətlərin böyük əhəmiyyətini də vurğuladıq. Biz həqiqətən də energetikadan, nəqliyyatdan, əmtəə mübadiləsindən, mədəniyyətdən, təhsildən, turizmdən tutmuş, - gəlin turizmi unutmayaq, - qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlıq aparılmasına imkan verən və iki il əvvəl imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə çərçivəsində mövcud olan yaxşı bünövrənin gerçəkləşdirilməsi istiqamətində əməli addımlar atmağa keçmişik. Bizim həqiqətən konkret addımlar atmağımızın zəruriliyi çox vacibdir. Çünki bizim siyasi əlaqələrimizin daha da inkişaf etməsi üçün böyük imkanlar mövcuddur. Prezident Əliyevin də qeyd etdiyi kimi, ölkələrimiz arasında əmtəə mübadiləsinin həcmi bizi qane etmir. Biz daha yaxşı nəticələrə nail ola bilərik. Yaxşı xəbər budur ki, Azərbaycan rəhbərliyi artıq gələn il yanvarın 1-dən Sofiya ilə Bakı arasında ilk reysi açmağa hazırdır. Bu, Bolqarıstanın Avropa İttifaqında sədrliyə keçməsi prosesi ilə üst-üstə düşür. Bu cəhətdən Bolqarıstan Azərbaycan Respublikasına öz dəstəyini təsdiq edir. Avropa İttifaqı ilə qarşıdakı hərtərəfli razılaşmanın imzalanması ilə əlaqədar Bolqarıstan Avropa İttifaqının Şərq Tərəfdaşlığını, onun qüdrətli, sabit, perspektivli regiona çevrilməsi cəhətdən səylərini və bu istiqamətdə Azərbaycanın siyasətini, bütün mühüm missiyalarda və NATO-da Azərbaycan kontingentinin iştirakını dəstəkləyir. Biz daha böyük nəticələrə nail ola bilərik.

Bolqarıstan Azərbaycanın kənd təsərrüfatının inkişafına, kənd təsərrüfatında, xüsusilə emal sənayesində yeni texnologiyaların tətbiq olunmasına, Azərbaycan Respublikasında əczaçılıq istehsalının inkişafının təşkilinə öz töhfələrini verə bilər. Energetika sahəsindəki yüksək texnoloji imkanları sayəsində Azərbaycan da Bolqarıstan qurumları ilə bizim ölkəmizdə fəal inkişaf etməli olan məişət sektorunun qazlaşdırılmasında, eləcə də Bolqarıstanın yanacaqdoldurma stansiyaları şəbəkəsinin inkişafında birgə işləməyə hazırdır.

Energetika bizi uzun illər birləşdirəcək sahədir və biz "Cənub Qaz Dəhlizi" layihəsinin gerçəkləşdirilməsinə dəstəyimizi təsdiq edirik. Azərbaycan qazın nəqli mənbələrinin və marşrutlarının inkişafı, onun Cənubi və Mərkəzi Avropada real şaxələnməsinə kömək üçün bu layihənin gerçəkləşdirilməsində həlledici rol oynayır. Biz Asiya və Avropa arasında nəqliyyat və qaz dəhlizlərinin inkişafında qarşılıqlı maraqları təsdiq etdik. Bizim ölkələrimiz regionda strateji mövqeyə malikdir və biz bu mövqeyin təqdim etdiyi bütün imkanlardan istifadə etməliyik.

Son illərdə bizim mədəniyyət, təhsil və elmi sahələrdə əlaqələrimiz intensiv inkişaf edir. Mən Prezident Əliyevə Heydər Əliyev Fondu sayəsində Trapezitsa qalasının bərpası layihəsinin həyata keçirilməsinə görə təşəkkür edirəm. Biz hesab edirik ki, bu, həm təhsil, həm də mədəniyyət sahələrində məhsuldar əməkdaşlığın yalnız başlanğıcıdır.

Təhlükəsizlik sahəsinə gəldikdə, əlbəttə ki, mən Azərbaycan Respublikasının müvafiq strukturları ilə əməkdaşlığı dəstəkləyirəm. Həmçinin istəyirəm ki, təhsil sahəsində əməkdaşlıq edərək sizin tələbələriniz bizim ali məktəblərimizdə təhsil alsınlar. Bolqarıstan həqiqətən təkcə Balkan yarımadasında deyil, həm də Qara dəniz regionunda təhlükəsizlik və sabitlik mərkəzidir. Mən ümid edirəm ki, bizim bugünkü görüşlərimiz xalqlarımızın rifahı və təhlükəsizliyi naminə bütün sahələrdə məhsuldar əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edəcək. Təşəkkür edirəm, cənab Prezident.

# Dominik Tarçinski: "Beynəlxalq təşkilatlarda ölkələrə qarşı hücumlar siyasi təzyiq aləti, mənfəət oyunudur"

***Beynəlxalq təşkilatlarda ölkələrə qarşı hücumlar siyasi təzyiq alətidir. Bu, sırf siyasi mənfəət oyunudur. Bu fikri AZƏRTAC-a müsahibəsində Polşanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Dominik Tarçinski söyləyib. Polşalı parlamentari bildirib ki, onun ölkəsi də bəzən belə hücumlara məruz qalır: "Bu baxımdan Azərbaycanı çox yaxşı başa düşürük. Mən Azərbaycana qarşı hücumları və beynəlxalq təsisatların siyasi oyunlarını aydın görürəm. Heç kimin Azərbaycana dərs keçməyə, onunla belə davranmağa haqqı yoxdur".***

Dominik Tarçinski bildirib ki, bu gün demokratiya böyük dövlətlər üçün bir təzyiq vasitəsidir. Onlar üçün hər şey yaxşı gedəndə biz onların gözündə demokratik oluruq. Proseslər onların arzu etmədiyi məcraya yönəldikdə isə qəflətən diktatorluqda günahlandırılırıq. Böyük dövlətlər bizlərə suveren və azad olmaq şansı vermirlər. Bunun üçün onların ən uğurlu bəhanəsi demokratiya, bu bəhanədən istifadə etmək üçün ən uğurlu aləti isə beynəlxalq təşkilatlar, ictimai rəy formalaşdıran müxtəlif jurnalistlərdir. Hamıya aydındır ki, ölkələr arasında mədəni, siyasi və tarixi təcrübə fərqləri mövcuddur. Hər bir ölkə fərqlidir və öz problemləri var. Beynəlxalq təşkilatların, eləcə də AŞPA-nın münasibəti bəzən məndə belə bir fikir formalaşdırır ki, biz sanki kiçik uşaqlarıq və valideynlərimizin dediyini etməsək bizi cəzalandıracaq və bizə cibxərci verməyəcəklər. Ancaq nə beynəlxalq təşkilatlar, nə bu təşkilatlardakı böyük dövlətlər bizim valideynlərimizdir, nə də ölkələrimiz kiçik uşaqlardır. Biz tərəfdaşıq, tərəfdaşlıq isə bərabər hüquqlu əsasda olmalıdır.



OCCRP-nin Azərbaycanla bağlı iddialarına münasibət bildirən polşalı parlamentari bu iddiaların əsasının olmadığını deyib: "Mən ixtisasca hüquqşünasam. Əksi sübut olunana qədər ittiham edilən günahsız, ittiham edən isə böhtançı sayılır".

Dominik Tarçinski bildirib: "Siyasətdə təzyiqin əsas iki güclü vasitəsi olub: korrupsiya və cinsi ələ şantajı. Bu vasitələr bu gün də dəyişməyib. Birinin sizə korrupsiyaçı deməyi ilə siz korrupsiyaçı olmursunuz. Təəssüf ki, bu ittihamlar bəziləri tərəfindən sübutsuz şəkildə irəli sürülür. Həmin iddiaları ortaya atan və sübuta yetirə bilməyən şəxslər isə cəzalandırılmır. Demokratiya mükəmməl sistem deyil, lakin bu günə qədər yaradılmış ən yaxşı sistemdir. Demokratiyada hər zaman özünü satmağa hazır olan insanlar görmək mümkündür. Özünü satmağa hazır olan insanlar olduğu kimi, onları almaq istəyənlər də var. Ancaq bu, belə birinə görə bütün ölkəni günahlandırmağa əsas vermir.

Mən Polşa -Azərbaycan parlamentlərarası dostluq qrupunun sədriyəm. Bu, təsadüfən verilmiş bir qərardır. Dostluq qrupuna sədr təyin olunanda mənim Azərbaycanla bağlı təsəvvürlərim yox dərəcəsində idi. Coğrafi cəhətdən Azərbaycanın harada yerləşdiyini bilsəm də, siyasi və mənəvi olaraq "yəqin dünyanın o biri ucudur" deyirdim. Ancaq Azərbaycana səfər etdikdən sonra bütün fikirlərim dəyişdi. Hər bir ölkənin inkişaf və dəyişiklik sürəti fərqlidir. Buna hörmət etmək lazımdır. Demokratiyanın mahiyyəti də məhz budur. Ölkəyə nəyi necə etməli olduğunu demək lazım deyil. Çünki bunu ən yaxşı o ölkəni idarə edənlər bilir. Başqalarının edəcəyi ən böyük yaxşılıq ölkəni idarə edənlərin ölkənin inkişafı üçün etdiklərinə yardım etməkdir.

Azərbaycan Avropa Şurasının üzvüdür və hər zaman buradadır. Bu, o deməkdir ki, Azərbaycan dialoqa, müzakirəyə açıqdır, konstruktiv tənqidi qəbul edir. Lakin bu tənqidlər konstruktiv olmalı, dövlətin milli ləyaqətini də qorumalıdır. Bəzən burada avropalı deputatlara azərbaycanlılar tərəfindən guya rüşvət təklif olunması ilə bağlı böhtanlar da səslənir. Mən dostluq qrupunun sədriyəm, Azərbaycanla münasibətlərdə mühüm təsir gücüm var. Amma bu günə qədər nəinki belə təklif eşitməmişəm, hətta kiməsə edilməsinin şahidi də olmamışam. Digər tərəfdən, əgər kiməsə rüşvət verildiyi iddia olunursa, burada ilk məzəmmət edilməli olan tərəf elə rüşvəti alanın özüdür. Məsələn, mənə belə bir təklif olunsaydı, mən dərhal prokurorluğa və ya məhkəməyə məlumat verərdim. Əgər kimsə rüşvəti alıb bunu etmirsə, deməli, əslində günahkar onun özüdür. Ona görə də OCCRP-nin və digər qurumların iddiaları mənə gülünc gəlir".

## Adele Qambaro: "Avropa təsisatlarında düşüncə tərzi, yanaşma ciddi şəkildə dəyişməlidir"



Azərbaycanda kifayət qədər irəliləyişlər var. Ancaq bu müsbət işləri görmək və qiymətləndirmək lazımdır. Təbii ki, bütün ölkələrdə, eləcə də Azərbaycanda hələ görüləsi işlər, həyata keçiriləsi islahatlar da var. Bu fikirləri AZƏRTAC-a müsahibəsində İtaliyanın AŞPA-da nümayəndə heyətinin üzvü, Azad Demokratlar Qrupunun sədri Adele Qambaro deyib.

Adele Qambaro bildirib ki, Avropa Şurası Azərbaycanla təzyiq dili ilə danışmaq əvəzinə, bu ölkədə demokratiyanın daha da möhkəmlənməsi üçün dəstək verməlidir. AŞPA-da Azərbaycana qarşı məhkəməyəbənzər bir proses qurmaq qətiyyən doğru deyil. Əksinə, Azərbaycanla dialoqu daha da gücləndirmək, onu daha çox eşitmək lazımdır. Azərbaycanla bağlı sənədlərin müzakirəsi zamanı bəzi avropalı deputatların məhkəmədə imiş kimi fikirlər səsləndirmələri də doğru deyil, çünki bu AŞPA-nın işi deyil. Adele Qambaro OCCRP təşkilatının Azərbaycanla bağlı ortaya atdığı iddialarla bağlı qeyd edib ki, heç bir sübut olmadan iddia irəli sürmək və AŞPA daxilində müzakirəyə çıxarmaq düzgün deyil. Bu iddialar sadəcə böhtan xarakteri daşıyır.

Son dövrlər AŞPA-da Azərbaycana qarşı mənfi münasibətin yarandığını qeyd edən italiyalı parlamentari Avropa təsisatlarında düşüncə tərzinin, yanaşmanın ciddi şəkildə dəyişilməli olduğunu vurğulayıb. O deyib: "Burada kifayət qədər deputat var ki, demokratiya sahəsində problemləri olan ölkələrə loyal yanaşırlar, Azərbaycana qarşı isə olduqca sərt münasibətdədirlər. Bu, o deməkdir ki, bu təsisatlarda düzgün olmayan məsələlər var. Bu, xoşagəlməz və məyusedici haldır. Biz burada xalqı təmsil edən parlamentarilərik. Parlamentarilər arasında münasibətlər hökumətlərarası münasibətlərdən fərqli olmalıdır. Parlament üzvləri hər bir şəraitdə əlaqələri və dialoqu qoruyub saxlamağı bacarmalıdırlar. Bu, mənim fikrimdir və burada olan hər kəsin fikri belə olmalıdır. Ancaq təəssüf ki, ortaya atılan iddialar və böhtanlar çoxlarını bu fikirdən uzaqlaşdırıb.

## Aleksandr Lukaşenko: Belarus və Azərbaycan parlamentləri ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verə bilərlər

Belarus və Azərbaycan parlamentləri ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verə bilərlər. AZƏRTAC xəbər verir ki, bu fikri oktyabrın 13-də Minskdə Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib. Parlamentin öz imkanlarının və üstünlüklərinin olduğunu qeyd edən A.Lukaşenko deyib: "Mən parlamentlərin imkanlarını yaxşı bilirəm. Düşünürəm ki, parlamentlər ölkələrimiz arasında münasibətlərin inkişafına təkan verə bilər. Prezident kimi şəxsən mən Belarus parlamenti sədrinin fikirlərinə çox diqqət yetirirəm. Bilirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev də çox demokratik, yüksək təhsilli və intellektual şəxsdir. Əgər ölkə parlamenti vacib məsələni irəli sürərsə, ona xüsusi diqqət yetirir".



Belarus dövlətinin başçısı qeyd edib ki, hər iki ölkənin müəyyən etdiyi öz yolu, öz siyasi xətti var. "Ölkələrimiz arasında çox səmimi və yaxşı münasibətlər var. Sözsüz ki, biz dost kimi bir-birimizə etibar edirik", - deyə Belarus Prezidenti vurğulayıb. Prezident A.Lukaşenko deyib ki, Belarus və Azərbaycan bir çox sahələrdə sıx əməkdaşlıq edirlər. Ölkələrimizin müştərək müəssisələrinin istehsal etdiyi məhsullar digər ölkələrin bazarlarına çıxarılır.

"Biz birlikdə Cənub və Şərqə doğru addımlayırıq. İqtisadi sahədə bu siyasəti dəstəkləməkdə davam edəcəyik. Belarus ilə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlıq genişlənir, bunu heç kimdən gizlətmirik. Azərbaycana bu sahədə dəstək verməkdə israrlıyıq. Belarus Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır və bununla bağlı qətiyyətli mövqeyini davam etdirəcək", - deyə A.Lukaşenko qeyd edib. Belarus Prezidenti MDB Parlament Assambleyası çərçivəsində regional əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyini bildirib. Soçidə MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü xatırladan A.Lukaşenko deyib ki, bu görüşdə ikitərəfli münasibətlərə dair geniş müzakirələr aparılıb. Ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət ayırdığına görə Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirən Aleksandr Lukaşenko Prezident İlham Əliyevə xoş və səmimi salamlarını çatdırıb.

Milli Məclisin sədri Oqtay Əsədov səfər zamanı göstərdikləri xoş və doğma münasibətə görə Belarus dövlətinin başçısına təşəkkür edərək, Azərbaycan Prezidenti İlham Əliyevin xoş və səmimi salamlarını Prezident A.Lukaşenkoya çatdırıb. Spiker qeyd edib ki, Azərbaycan Belarus ilə bütün istiqamətlərdə əməkdaşlığı fəal davam etdirir. Bu gün ikitərəfli format demək olar ki, bütün sahələri əhatə edir və genişlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Belarusun tutduğu mövqeyə görə təşəkkürünü bildirən Oqtay Əsədov xatırladıb ki, 2016-cı il aprel hadisələrində Belarus Prezidenti bəyanat verərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini açıqladı. Görüşdə Milli Məclisin komitə sədri Ziyad Səmədzadə, deputatlar Xanlar Fətiyev, Ülviyyə Ağayeva, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov və başqaları iştirak ediblər.

# 2003-cü ilin 15 oktyabrı Azərbaycanda yeni dövrün və inkişafın əsası qoyulan gündür

## *Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir*



***Artıq 26 ildir ki, Azərbaycan xalqı ictimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayır. Bu dövr ərzində Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında yer alıb. Sosial, iqtisadi, siyasi və mədəni sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Müstəqil dövlətimizin sürətli və ardıcıl inkişafına təkan verən bütün amillər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir.***

2003-cü il 15 oktyabr prezident seçkilərində xalqın dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilən Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla və qətiyyətlə davam etdirməkdədir. Azərbaycan bu gün Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir. Hər bir ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün bir-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir. Qətiyyətlə deyə bilərik ki, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uzaq olmasına zəmin yaratdı. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində iqtisadiyyatın inkişafında neft amilinə verilən yüksək dəyərin nəticəsi, təbii ki, Azərbaycanın bugünkü reallıqlarıdır. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir və bu yol Azərbaycanı daha uğurlu bir tarixə - gələcəyə aparır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin və dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları əhtiva edir. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbatlar və ehtiyaclar yüksək səviyyədə ödənilib. Prezident İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçib: "İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə, bu qısa müddət ərzində, iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsulluğa son qoyduq...İşsizlik ilə çox ciddi mübarizə aparırıq. İşsizlik çox aşağı səviyyədədir".

Dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi ilə müşayiət olunan son illərdə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilmiş, Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib. Bu gün Azərbaycanı bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi, ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Azərbaycan hər sahədə inkişaf edir. Maliyyə böhranı dünya dövlətlərini büdcə xərclərini azaltmağa məcbur etdiyi zamanda, Azərbaycanda səhiyyənin, təhsilin inkişafına, bu və ya digər sahələrin maddi-texniki bazasının gücləndirilməsinə diqqət artır. İnsanların sağlamlığının qorunması, təhsilin inkişafı prioritet məsələ kimi diqqətdədir. Gələcək nəslin sağlam böyüməsinə daimi diqqətin nəticəsidir ki, səhiyyə sahəsinə diqqət artıb. Hazırda həm paytaxtda, həm də ölkənin müxtəlif bölgələrində tibb müəssisələrində təmirtikinti işləri aparılıb. Ənənəvi olaraq, əsaslı təmir və tikintidən sonra əhalinin istifadəsinə verilən müasir səhiyyə ocaqlarının açılışında dövlətimizin başçısı şəxsən iştirak edib. Artıq Azərbaycanın hər bir bölgəsində, hər bir rayonunda əhali müasir xəstəxanalarda və müalicə-diaqnostika mərkəzlərində keyfiyyətli tibbi yardım ala bilir. Ölkə səhiyyəsinin inkişafında və insanların sağlamlığının qorunmasında dövlət proqramları da mühüm rol oynayır. Ümumiyyətlə, bu proqramlar səhiyyənin ən ağır və həyati əhəmiyyət daşıyan problemlərinin həllinə yönəlib. Nəticə olaraq, bu gün deyə bilərik ki, dövlət tərəfindən bu proqramlara ayrılan vəsait həm minlərlə insanın müalicəsini, həm də səhiyyənin müxtəlif sahələrinin inkişafını təmin edib. Belə ki, vaxtilə ölkəmizdəki yeganə Dövlət Dializ Mərkəzində cəmi 431 xəstə müalicə alırdı, 800 nəfər xəstə isə növbə gözləyirdi. Bu gün həmin növbələr ləğv olunub. 27-si bölgələrdə olmaqla, 34 Dövlət Hemodializ Mərkəzində xəstələr dövlət hesabına müalicə alır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Sosial infrastruktur layihələri icra edilir.

### Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi bir dövrdə Azərbaycan Prezidentinin düşünülmüş siyasəti nəticəsində, ölkəmizdə sabitlik qorunub-saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır. Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 14 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbət qazanmış bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. "Bu hadisə, təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində", - deyən Prezident İlham Əliyev Azərbaycan əleyhinə birləşən qüvvələrə qarşı bu inam və diqqətin ölkəmizin gücünü və iradəsini bir daha ortaya qoymuş olduğunu bildirdi. Ölkə başçısının qeyd etdiyi kimi, "dünya birliyi bu gün bizi dəstəkləyir".

### Azərbaycan multikultural bir dövlətdir

Bəli, multikultural dəyərlər dövlətlərarası münasibətlərə də sirayət edərək, onun inkişafına öz töhfəsini verir. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlılara məxsus həyat nümunəsi olub. Bu gün də bu xüsusiyyət milli kimliyindən, dilindən və dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının dəyər verdiyi ənənədir. Bu baxımdan, Azərbaycanda həyata keçirilən multikulturalizm bütün dünyaya nümunədir və ölkəmizin inkişafında, vətəndaş həmrəyliyinin daha da möhkəmlənməsində mühüm rol oynayır.

Azərbaycan, sözün həqiqi mənasında, dünyada tolerantlığa nümunə olan ölkədir. Bu, bütün dünyada qəbul olunur. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə malik olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir. Dünyada yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr içərisində Azərbaycan birinci yerdədir. Azərbaycan, demək olar ki, yəhudilərin İsraildən sonra ən azad dini icma şəklində fəaliyyət göstərdikləri bir ölkədir. Azərbaycanda 7 sinaqoq və 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin güclənməsinə də töhfələrini verməkdədir.

***Zümrüd BAYRAMOVA***

# Suraxanı rayonu 9 ayı uğurla başa vurub

***Dünən Suraxanı rayon icra hakimiyyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrə və Suraxanı rayonu üzrə doqquz ayın yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib.***

Rayon icra hakimiyyətinin konfrans zalında keçirilən hesabat yığıncağında rayon icra hakimiyyəti başçısı İlqar Abbasov Nazirlər Kabinetinin iclasında dövlət başçısının proqram xarakterli nitqində vurğulanmış önəmli məsələlər və görülən işlər barədə yığıncaq iştirakçılarına məlumat verib.






Rayon rəhbəri daha sonra ötən 9 ayda rayonda görülən işlər, həyata keçirilən və nəzərdə tutulan layihələr barədə danışıb. Doqquz ayın sosial-iqtisadi yekunları barədə məlumat verən rayon rəhbəri qeyd edib ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı sayəsində, ölkəmizin hər yerində olduğu kimi, Suraxanı rayonunda da cari ilin doqquz ayında sürətli sosial-iqtisadi inkişaf davam etdirilmiş, bir çox işlər görülmüş və nailiyyətlər əldə olunmuşdur. Cari ilin 9 ayında Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 229,9 milyon manat, tikinti-quraşdırma işləri 24,0 milyon manat, nəqliyyat xidmətləri 11,7 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 25,9 milyon manat, kənd təsərrüfatı 4,9 milyon manat, pərakəndə ticarət dövriyyəsi 235,8 milyon manat, orta aylıq əmək haqqı 590 manat təşkil etmiş, əhaliyə 118,2 milyon manat məbləğində pullu xidmətlər göstərilmiş, 3684 yeni iş yeri açılmışdır.

İ.Abbasov bildirib ki, rayon infrastrukturunun yenidən qurulması davam etdirilmiş, kanalizasiya xətləri çəkilmiş, qəzalı su xətti dəyişdirilmiş, yüksəkgərginlikli elektrik yarımstansiyası tikilmiş, istilik xətləri dəyişdirilmişdir. Yenidən qurulan yolların ətrafının estetik görünüşünün yaxşılaşdırılması məqsədi ilə yolların ətrafında irimiqyaslı təmir-tikinti və abadlıq işləri aparılır.

Ümumilikdə, rayonun qəsəbələrində bu dövr ərzində 20 "Nümunəvi abad məhəllə" salınmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə işsiz vətəndaşların ödənişli ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmiş, bu il həmin proqrama əsasən, rayon üçün 1435 yeni iş yeri açılmış, rayon MKTB-yə 36-sı məcburi köçkün olmaqla, cəmi 568 nəfər işaxtaran şəxs, digər qurumlarda isə 662 nəfər vətəndaş işə qəbul edilmişdir. "Bir bələdiyyə-azı bir layihə" proqramı çərçivəsində Hövsan, Əmircan və Bülbülə bələdiyyəsinin hər biri bir layihə reallaşdırmışdır.

Bu dövr ərzində ekoloji məsələlərin həllinə diqqət artırılmış, Zığ və Bülbülə göllərinin ekoloji vəziyyətlərinin yaxşılaşdırılması işləri davam etdirilmişdir.

İ.Abbasov çıxışında onu da bildirib ki, Suraxanı rayonu Heydər Əliyev Mərkəzi yarandığı gündən rayonun ideoloji mərkəzinə çevrilmişdir. İndiyədək Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə 76 minə yaxın yerli və xarici ziyarətçi tanış olmuş, Mərkəzin Elektron Kitabxanasının xidmətindən 16 mindən artıq istifadəçi faydalanmışdır: "Rayon təhsil sahəsində də uğurlu nəticələr əldə edilmişdir. 2017-2018-ci dərs ilinə ciddi uğurlarla gələn Azərbaycan təhsili üçün ötən dərs ili bir sıra mühüm hadisələr, islahatyönümlü tədbirlərlə əlamətdar olub. Rayon məzunları Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ötən illərə nisbətən daha yaxşı nəticə göstəriblər. Belə ki, 2016-2017-ci tədris ilində rayon məktəblərini bitirmiş 2005 məzundan 1111 nəfəri tələbə adını qazanmışdır. Bu da sənəd verən məzunların 70,4 faizini təşkil edir.

2017-ci ilin 9 ayı ərzində Suraxanı rayon gənclər və idman idarəsi tərəfindən aidiyyəti dövlət proqramlarının icrası, Dövlət İdman Siyasətinin həyata keçirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili, sağlam həyat tərzinin təbliği məqsədi ilə, ümumillikdə 173 tədbir və idman yarışı keçirilmiş, bu tədbirlərdə 29193 nəfər gənc, yeniyetmə və idmançı iştirak etmişdir. İdman bazası Suraxanı rayonunda yerləşən "Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmışdır. İşğal altında olan Ağdamı təmsil edən "Qarabağ" futbol klubunun qələbəsi hər birimizi sevindirir və qürurlandırır. "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna 2017-ci ilun 9 ayı ərzində 23 mindən çox yerli və xarici turist gəlmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz çoxdur. 2017-ci ilin 9 ayı ərzində RİH başçısı tərəfindən 456 nəfər vətəndaş qəbul edilmiş, 2180 nəfərin iştirakı ilə 38 səyyar görüş-qəbul keçirilmişdir. Rayon əhalisinin sosial müdafiəsi daim diqqət mərkəzində olmuş, hesabat dövründə 8924 aztəminatlı şəxsə 5,98 milyon manat sosial müavinət ödənilmiş, 1013 ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilmiş, Məşğulluq Mərkəzinə müraciət edənlərdən 828 nəfəri işlə təmin edilmiş, 106 nəfər peşə hazırlıq kurslarına göndərilmişdir".

Hesabat yığıncağında əldə olunmuş nailiyyətlərlə yanaşı, həllini gözləyən problemlər, çatışmazlıqlar və onların aradan qaldırılması yolları də müzakirə olunmuşdur. Yığıncaqda Milli Məclisin deputatları Fərəc Quliyev və Ağacan Abiyev çıxış ediblər.

**ZÜMRÜD**

## Bakıdan Gəncəyə sürət qatarı ilə sərnişinlər təxminən 4 saata çata biləcəklər

Bakıdan Gəncəyə sürət qatarı ilə sərnişinlər təxminən 4 saata çata biləcəklər. Gələn il istifadəyə verilməsi planlaşdırılan Bakı-Gəncə sürət qatarında gediş haqqı təqribən 20 manat olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, sərnişinlər Bakıdan Gəncəyə sürət qatarı ilə təxminən 4 saata çata bilərlər. Bu istiqamətdə gediş haqqı 10-14 dollar arası hesablanıb ki, bu da təqribən 20 manat edir.

## Bakıda litvalı rejissorla görüş təşkil ediləcək

Oktyabrın 17-də "CinemaPlus Azerbaijan" kinoteatrında litvalı rejissor Andruis Stonysla görüş keçiriləcək. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqından AZƏRTAC-a verilən məlumata görə, görüş çərçivəsində rejissorun yeni - "Buzlaqlarda qadın" filmi nümayiş olunacaq. Görüş İttifaqla Litvanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə reallaşacaq.



## YAP Yasamal rayon təşkilatında qəbul imtahanlarında yüksək bal toplayan tələbələrlə görüş keçirildi



***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında builki qəbul imtahanlarında yüksək bal toplayan tələbələrlə görüş keçirildi. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.***

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirdi ki, bugünkü görüş əlamətdar bir gündə - Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi ərəfəsində təşkil olunub. Rayon təşkilatının sədri bildirdi ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə ictimai-siyasi hadisələrin çox gərgin olduğu bir zamanda yaradılıb: "Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. Partiyanın təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi. Konfransda Azərbaycanın əksər bölgələrindən cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edirdi. Beləliklə, Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxdı".

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıya nəzər salaraq, qeyd etdi ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər: "Hər bir ölkənin gələcəyi onun gənclìyindən asılıdır. Əgər cəmiyyətdə inkişaf mövcuddursa, deməli, o cəmiyyətdə gənclərdə də inkişaf prosesi sürətlə gedir, intellektual, mənəvi və fiziki anlamda sağlam olacaqlar". O, gənclərə bəzi tövsiyələrini verərək onlara uğurlar arzuladı.

Sonra yükək bal toplayan və ali təhsil müəssisələrinə qəbul olan tələbələrə hədiyyələr təqdim olundu.

Tədbirdə çıxış edən BDU-nun tələbəsi Səidə İsmayılova bu diqqətə görə minnətdarlığını bildirdi. O, gənclərimizə dövlət tərəfindən böyük qayğı göstərildiyini vurğulayaraq, yaradılan əlverişli mühitin onların yüksək nəticə əldə etməsinə səbəb olduğunu bildirdi.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır”

## *Bu mövzuda “Səs” qəzetinin və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə dəyirmi masa keçirildi*

**(Əvvəli ötən saylarımızda)**

**“Səs” qəzetinin redaksiyasında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar olaraq “Səs” qəzetinin və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə “Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır” mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, YAP Siyasi Şurasının üzvü, “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, Musa Quliyev, YAP Qadınlar Şurasının sədri, BSU-nun rektoru Nurlana Əliyeva, YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, eləcə də, tələbə-gənclər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.**

Dəyirmi masada Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyasının 25 illik şərəfli və qürurverici fəaliyyəti ilə bağlı “SƏS” TV-nin hazırladığı “Xalq və dövlətçilik uğrunda 25 il” filmi nümayiş olundu.

Dəyirmi masanı giriş sözü ilə açan “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyətinin şərtləndirdiyi zərurətdən yaranan Yeni Azərbaycan Partiyasının tarixi dövrünə nəzər saldı: “Məlum olduğu kimi, Azərbaycanın çox ağır dövründə - 1992-ci il noyabrın 21-i Yeni Azərbaycan Partiyasının təsis olunduğu gündür. 25 il əvvəl Azərbaycanda yaranmış ağır durum yeni siyasi təşkilatın yaranma zərurətini meydan gətirdi. YAP qısa vaxtda ictimai-siyasi proseslərə ciddi təsir etməsi baxımından, özünü ifadə edə bilən təşkilata çevrildi. YAP daşıdığı azərbaycançılıq ideyasını cəmiyyətdə təsbit edə bildi və öz üzərinə götürdüyü amalları və ümidləri doğruldaraq Azərbaycan vətəndaşlarının Ulu Öndər Heydər Əliyevdən və Onun yaratdığı partiyadan gözlədikləri nə varsa, hər birini həyata keçirə bildi”.

Bugünkü dəyirmi masa iştirakçılarının əksəriyyətinin həmin dövrün ictimai-siyasi iqlimini görən və bu proseslərdə yaxından iştirak edən nümayəndələr olduğunu diqqətə çatdıran B.Quliyev iştirakçılara Ulu Öndər Heydər Əliyevin ölkənin çətin anlarında atdığı addımları, qərarları və Yeni Azərbaycan Partiyasının yaradıcısı kimi fəaliyyəti, eləcə də, YAP-ın keçdiyi şərəfli və uğurlu yol ətrafında fikirlərini bölüşməyi bildirdi. Onu da qeyd etdi ki, bu cür tədbirlərin təşkili respublikamız üçün çox əhəmiyyətlidir. Yaşanılmış tarixi məqamların gənclərə təqdim olunması vacibdir.

### YENİ AZƏRBAYCAN PARTİYASI AZƏRBAYCAN TARİXİNİN AYRILMAZ BİR PARÇASIDIR




**VÜQAR RƏHİMZADƏ:**

- Bu gün əlamətdar tarixi günə - Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibəti ilə təşkil etdiyiniz dəyirmi masaya görə minnətdarlığımı bildirirəm. Mən hər kəsi, Yeni Azərbaycan Partiyasının təəssübkeşlərini, bizə dəstək olan insanları bu bayram münasibəti ilə təbrik edirəm. YAP-ın yaranma tarixinə nəzər salsaq, görərik ki, həmin dövrdə Azərbaycan ağır duruma düşmüşdü, buna görə də, ölkə siyasi və iqtisadi böhran keçirirdi. Ölkəni bürümüş dərin siyasi-iqtisadi və sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları və tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri və Müdrik Oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Azərbaycanın ən yeni tarixinə “91-lər”in müraciəti kimi daxil olmuş sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. 21 noyabr 1992-ci ildə Naxçıvanda partiyanın təsis konfransı 550 nəfər nümayəndənin iştirakı ilə keçirildi və Ulu Öndər Heydər Əliyev YAP-ın Sədri seçildi.

O zaman tarixi zərurətdən yaradılan Yeni Azərbaycan Partiyasının ətrafında birləşən insanlar qətiyyətli və cəsarətli addım atdılar. Yaxşı tanıdığımız ziyalılardan olan Əjdər Xanbabayevin taleyi, başına gətirilən hadisə hər birimizə qarşı törədilə bilərdi. Təbii ki, Ulu Öndər Heydər Əliyevi daxilən sevənlər çox idi, lakin elə qüvvələr də var idi ki, onlar əks-təsir və təzyiqlə bu işə maneçilik törətməyə çalışırdılar. Lakin buna baxmayaraq, insanların qətiyyəti və məqsədi maneləri dəf etmiş oldu. Yeni Azərbaycan Partiyası yaradıldıqdan sonra Azərbaycanın rayonlarında partiyanın təşkilatlarının əksəriyyətinin yaradılmasında mən də iştirak etmişəm. Həmin proseslərdə Dahi Öndər Heydər Əliyevə olan xalq münasibətini açıq-aydın görürdüm. İnsanlar o dövrkü hakimiyyətdən yaxa qurtarmaq istəyirdilər.

Yeni Azərbaycan Partiyasının 25 illik tarixi yolu, hesab edirəm ki, çox böyük şərəfli tarixdir. Müstəqil Azərbaycan dövlətinin qurulmasında, bu dövlətin möhkəmlənməsində və bu dövlətin dünya birliyində yüksək zirvələr fəth etməsində Yeni Azərbaycan Partiyasının hər bir üzvünün fədakarlığı ortalıqdadır. Ulu Öndər Heydər Əliyev kimi dahi Şəxsiyyətin qurub-yaratdığı partiyada təmsil olunmaq və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu bu partiyanın üzvü olmaq çox böyük qürurvericidir, şərəflidir. Necə deyərlər, alnımız açıq, üzümüz ağdır. Partiya hər zaman xalqa xidmət nümunəsini ortaya qoyub. Partiya bütün prinsiplərində, bütün fəaliyyətində xalqın şəraitinin yaxşılaşması, dövlətimizin möhkəmlənməsi prinsipini öndə tutub və düşünürəm ki, bu prinsipə çox sədaqətlə və yüksək məharətlə də nail olubdur.

Müasir dövrümüzdə Yeni Azərbaycan Partiyası Dahi Öndər Heydər Əliyev ideyalarına əsaslanır, Onun ideyalarını yaşadır, bu ideyalar əsasında Azərbaycan cəmiyyətini kökləyərək, inkişafın əsas istiqamətlərini müəyyənləşdirir. 25 illik tarixi gedişdə Yeni Azərbaycan Partiyası bu missiyanı layiqincə yerinə yetirib. 25 il ərzində Yeni Azərbaycan Partiyasını daim uğurlar və nailiyyətlər müşayiət edib. Bu inkişafa və tərəqqiyə Yeni Azərbaycan Partiyasının 700 mindən artıq üzvünün hər biri öz töhfəsini verməkdədir.

Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin və Azərbaycan taleyinin ayrılmaz bir parçasıdır, müqəddəs bir hissəsidir. Hesab edirəm ki, bu partiya gələcəkdə 25 illiyini yox, 50 illiyini qeyd edəcək və gənclərin bu partiyaya axını onun davamlı və əbədi olmasına dəlalət edir. Hamılıqla Cənab Prezidentin həyata keçirdiyi işlərə dəstək olmalıyıq ki, Azərbaycanımızın qarşıya qoyduğu hədəflərə yüksək səviyyədə nail olaq və hər birinizi bu əlamətdar tarixi gün münasibəti ilə təbrik edirəm.

**BƏHRUZ QULİYEV:**

- Bildiyimiz kimi, Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır. Hikmət müəllim, yaxşı olardı ki, bu qələbəni şərtləndirən əsas amillərə aydınlıq gətirəydiniz.

### YENİ AZƏRBAYCAN PARTİYASININ QƏLƏBƏLƏRİNİN RƏHNİ DƏ, SƏBƏBİ DƏ, GÜCÜ DƏ, RUHU DA XALQLA BİRLİKDƏ OLMASINDADIR

**HİKMƏT BABAOĞLU:**

- Yeni Azərbaycvn Partiyasının 25 illik tarixi, əslində, Azərbaycan dövlətinin müstəqillik tarixidir, çünki real müstəqilliyimiz, məhz bu tarixdən başlayır. Politologiya deyilən bir elm var. O, partiya tarixini öyrənən elmdir. Odur ki, partiyamızın siyasi qələbələrini belə xarakterizə etmək lazımdır. Mən Yeni Azərbaycan Partiyası kimi qələbələr qazanan və onu qorumağı zirvələrdən-zirvələri fəth etməyi bacaran və bu qədər haki-

# "Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır"

## Bu mövzuda "Səs" qəzetinin və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə dəyirmi masa keçirildi

miyyət zirvəsində qalmağı bacaran ikinci partiya nə postsovet məkanında nə də, bütövlükdə Avropa məkanında görməmişəm. Sözün həqiqi mənasında, Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır. Partiya özü ədalətlidir, çünkü onu yaradan İnsan Özü Ədalətli idi. Bilirsiniz, partiyamızın qələbələrinin rəhni də, səbəbi də, gücü də, ruhu da Yeni Azərbaycan Partiyasını xalqla birlikdə olmasındadır. Ona görə də, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının xalq partiyası kimi səciyyələndirirdi. Ancaq bu günündən danışırıqsa, elə bu günlərdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetini 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxış edərkən, Cənab Prezident bir daha Azərbaycanın yerini, mövqeyini və rolunu və beynəlxalq münasibətlər fonunda dəyərləndirərkən, onun uğurlarının əsl səbəbi kimi elə partiya ilə xalqın birliyində gördüyünü qeyd etdi. Partiyamız yarananda xalqın içində idisə, bu gün də, 25 sonra da xalqın içində olacaq. Onun bu qələbələrinin də içində bu durur. Bu gün mürəkkəb tarixi bir mərhələdə Yeni Azərbaycan Partiyasının missiyası hələ də başa çatmayıbdır.

YAP xalqın partiyasıdır, xalqa xidmət edir, milli maraqların keşiyində durur və Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımızı daha da işıqlı gələcəyə aparır. İnanırıq ki, Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq. Bütün bunları isə Azərbaycanda ən güclü siyasi təşkilat olan Yeni Azərbaycan Partiyası və onun Sədri, Azərbaycan Prezidenti Cənab İlham Əliyev reallaşdıracaqdır.




### BU GÜNÜN GƏNCLƏRİ YENİ AZƏRBAYCAN PARTİYASININ 25 İLLİK TARİXİNDƏN BƏHRƏLƏNİB

**SAMİRƏ QULİYEVA:**




- Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən gəncləri ətrafında birləşdirən mükəmməl qurulmuş siyasi sistemə çevrilib. Gənclərin seçdiyi bu partiyanın ölkəmizin müstəqillik tarixində oynadığı rolu, ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlər və əldə edilən böyük nəticələr hər kəsi qürurlandırır. Yeni Azərbaycan Partiyası həm də gəncliyin partiyasıdır. Möhtəşəm layihələrə imza atılıb. Təkcə ölkə ərazisində deyil, dünya ölkələrində də gənclərin fəaliyyəti genişlənir, xarici dövlətlərin hakim partiyaları ilə münasibətlər qurulur. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından və onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər.

Partiyanın xətti ilə keçirilən müxtəlif səpkili layihələrdə gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün yay və qış məktəblərinin təşkil olunması, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə bağlı Azərbaycan Ordusunun əsgərləri ilə görüşlərin, elmi konfransların, seminar və treninqlərin keçirilməsi gənclərin fəallığında müstəsna rola malikdir. Bütün bu fəaliyyət, şaxəli layihələrin gerçəkləşməsi Yeni Azərbaycan Partiyasının sıralarında gənclərin daha sıx birləşmələrinə inam hissini gücləndirir.

Bu günün gəncləri Yeni Azərbaycan Partiyasının 25 illik tarixindən bəhrələnib. YAP-ın xalq qarşısında xidməti böyükdür, zənnimcə, ən böyük xidmətlərindən biri də 25 ildə formalaşdırdığı, yetişdirdiyi gənclərdir, vətəndaşlardır. Bu gənclər fədakar gənclik kimi yetişib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bakıdan Naxçıvana dəmir yolu xətti yaradılacaq



Bakıdan Naxçıvana dəmir yolu xətti yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bu xəttin yaradılması Türkiyə və ya İran üzərindən mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Qarsdan Sədərəkə dəmir yolu xətti çəkilə bilər. Bu layihənin dəyəri 2-2,5 milyard dollar təşkil edir. Türkiyə dövlətinin bu maliyyəni nə vaxt ayıracağı məlum deyil. C.Qurbanovun sözlərinə görə, Bakıdan Naxçıvana dəmir yolu əlaqəsinin yaradılması İran istiqamətindən də həyata keçirmək mümkündür. İranda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi tikildikdən sonra, bu ölkədən keçərək 1450 kilometr məsafəni qatarla Bakıdan Naxçıvana qət etmək mümkün olacaq. Bu yolun maliyyə dəyəri 1 milyard dollar təşkil edir. İran tərəfi yolun torpağını almağı öhdəsinə götürüb. Bütün bu tikinti işləri yekunlaşandan sonra İrandan keçməklə yəni 1450 kilometr ötməklə Bakıdan Naxçıvana məsafə qət edə biləcəyik. Dövlət başçısı da bu layihənin reallaşmasında maraqlıdır.

# Ağdamda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə əlaqədar tədbirlər davam edir

***Dünən YAP Ağdam rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə əlaqədar YAP Ağdam Dövlət Sosial İqtisad Kolleci ərazi ilk partiya təşkilatında tədbir keçirib.***



Tədbiri giriş sözü ilə açan Ağdam Dövlət Sosial İqtisad Kolleci ərazi ilk partiya təşkilatının sədr müavini Mütəllim Cavadov tədbir iştirakçılarını salamlayaraq, Yeni Azərbaycan Partiyasının yaranma tarixinə nəzər salıb və partiyanın 25 illik fəaliyyəti dövründə xalqımızın taleyüklü problemlərinin həllində müstəsna xidmətlərindən danışıb. O, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan ölkə başçısı Prezident İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru irəlilədiyini diqqətə çatdırıb. “Bu müddət ərzində, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə nüfuzu da güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan reqionun lider dövlətinə çevrilib.



Tədbirdə YAP-ın fəalları Hamlet Cəfərov və Elminaz Tapdıqova çıxış ediblər. Bildirilib ki, Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, bu gün ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına töhfələr verməkdə davam edir.

Tədbirdə yekun nitiq söyləyən Yeni Azərbaycan Partiyasının Ağdam rayon təşkilatının məsləhətçisi Rauf Bəxtiyarlı Azərbaycanın dövlətçilik tarixinə nəzər salıb. Ölkəmizin zəngin və qədim tarixə malik olduğunu, müxtəlif vaxtlarda amansız işğallara məruz qaldığını bildirib. 70 illik istiladan sonra 1991-ci ildə Azərbaycanın müstəqilliyinə qovuşduğunu diqqətə çatdıran R.Bəxtiyarlı yenicə müstəqillik qazanmış ölkəmizin çox çətin günlər yaşadığını və ağır təhlükələrlə üz-üzə qaldığını bildirib. Belə bir vəziyyətdə dövlətinin və xalqının əsl siyasi rəhbərə və xilaskara ehtiyacı olduğunu söyləyib. Məhz Dahi Şəxsiyyət Heydər Əliyev əsl xilaskarlıq missiyası ilə xalqının çətin günündə onun yanında oldu, problemlərinin həlli üçün bütün gücünü səfərbər edib.

***ZÜMRÜD***

# CHP-dən qardaşlıq münasibətlərinin ruhuna zidd addım...

***Yaxud AŞPA-da Türkiyə Böyük Millət Məclisinin CHP partiyasından olan deputatlarının Azərbaycanın əleyhinə səs verməsi böyük təəssüf və təəccüb doğurur.***

Məlum olduğu kimi, AŞPA-da Azərbaycanın öhdəliklərinə dair həmməruzəçilər Stefan Şennax və Sezar Florin Predanın hazırladıqları “Azərbaycanda demokratik təsisatların vəziyyəti” adlı hesabat üzrə qətnamə qəbul edilmişdi. Əlbəttə ki, belə bir qətnamənin qəbul edilməsi heç də təsadüfi görünmədi. Çünki islamofob qruplaşmaların qərargahına çevrilmiş AŞPA son müddət ərzində, Azərbaycana qarşı təzyiqlər edir, saxta məlumatlar əsasında siyasi qərarlar verir. Bütün bunlar başadüşüləndir.

Sözügedən qətnamənin qəbulu zamanı Türkiyə Böyük Millət Məclisinin CHP partiyasından olan deputatları - Dəniz Baykal, Gülsün Bilgəhan, İlhan Kəsicinin sənədin lehinə səs verməsi böyük təəssüf və təəccüb doğurur. Əlbəttə ki, bu hadisə Azərbaycan ictimaiyyətində böyük təəccüb, narahatlıq doğurdu və hiddətlə qarşılandı. Çünki heç bir halda, Azərbaycan ictimaiyyəti Türkiyəli deputatların anti-Azərbaycan kampaniyasına dəstək verməsini görməzlikdən gələ bilməz.

Axı qardaş ölkənin siyasətçiləri, daha yaxçı bilirlər ki, hər zaman Türkiyə hökuməti və xalqı üçün həssaslıq daşıyan bütün məsələlərdə Azərbaycan öz dəstəyini əsirgəməyib. Elə 2015-ci ilin iyul ayında Türkiyədə qanuni hakimiyyətin hərbi yolla devrilməsinə cəhd olunan zaman Azərbaycan Prezidenti İlham Əliyev qəti mövqeyini ortaya qoydu, qardaş Türkiyəyə və dövlət başçısına qəti dəstəyini ifadə etdi. Hətta digər türkdilli ölkələrdən fərqli olaraq, Azərbaycan Türkiyə dövləti ilə tam həmrəylik nümayiş etdirdi, “FETÖ” şəbəkəsinin üzvlərinə qarşı ciddi tədbirlər gördü və bunun da nəticəsi olaraq, ölkədə “FETÖ”-çülərin fəaliyyətinə birdəflik son qoyuldu.

Bununla yanaşı, Avropa təşkilatlarında, ayrı-ayrı konfranslarda Prezident İlham Əliyevin öz ölkəsilə yanaşı, Türkiyənin də maraqlarını müdafiə edib. Məsələn, Praqada dövlət və hökumət başçılarının iştirakı ilə “Şərq Tərəfdaşlığı” Proqramının 5 illiyinə həsr olunan sammitdə Türkiyənin təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti, bununla da sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq, qondarma “soyqırımı” məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serj Sarkisyan bir tərəfdən, Türkiyəni qondarma “soyqırımı” ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə, Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda çıxış edərək belə deyib: “Ermənistan prezidenti burada fürsətdən istifadə edərək, Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi ermənilər idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir. Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir”.

Görünən odur ki, Azərbaycan hər bir fürsətdə qardaş ölkənin də maraqlarını müdafiə edir. Bu mənada, cəmiyyətimiz, ictimaiyyətimiz ümid edir ki, Azərbaycan dövlətinin və xalqının milli maraqlarına qarşı yönələn istənilən prosesin qarşısının alınmasında da qardaş Türkiyə dövləti də öz qəti mövqeyini ortaya qoyacaq. Bütövlükdə, Azərbaycan ictimaiyyətinin narahatlığı və təəssüfü Türkiyə hökuməti və ictimaiyyəti tərəfindən təbii qarşılanmalıdır. Əminik ki, CHP də deputatlarının bu addımına aydınlıq gətirəcək və qardaşlıq münasibətlərinin ruhuna zidd addımların atılmaması üçün qəti iradəsini ortaya qoyacaq.

***“Səs” Analitik Qrupu***

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Göyçayda bölgə vətəndaşlarını qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir. AZƏRTAC xəbər verir ki, oktyabrın 13-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə vətəndaşların təklif, irad və şikayətləri ilə yerindəcə tanış olmaq üçün Göyçay rayon Heydər Əliyev Mərkəzində bölgə sakinlərini qəbul edib. Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Göyçay, Kürdəmir, Ucar, Ağdaş və Mingəçevirdə yaşayan vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul və digər məsələləri əhatə edib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin əksəriyyəti yerində həllini tapıb. Hər bir vətəndaşın probleminə diqqətlə yanaşan nazir Ramin Quluzadə müraciətlərin dəqiqliklə araşdırılması və qaldırılan məsələlərin həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Eyni zamanda, vətəndaşların müxtəlif təklifləri qeydə alınıb, şikayət xarakterli müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.



Regiona səfəri çərçivəsində nazir Ramin Quluzadə Göyçay, Kürdəmir, Ucar, Ağdaş və Mingəçevirin telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib. Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb. Nazir Ramin Quluzadə müvafiq sahə rəhbərlərinə hər bir vətəndaşın müraciətinə fərdi və həssaslıqla yanaşılması barədə tapşırıqlar verib.

# Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlər davam edir



*Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlər davam etməkdədir.*

Rayon təşkilatının növbəti tədbirləri rayon Statistika İdarəsi, Kommunal Təsərrüfatı İdarəsi və Hava Məlumat Bürosu ərazi ilk partiya təşkilatlarında keçirilib. Tədbirlərdə öncə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Statistika İdarəsi ərazi ilk partiya təşkilatının sədri Ədalət Məmmədov Yeni Azərbaycan Partiyasının yaranma tarixinə qısa nəzər salaraq, o dövrün çətinliklərindən danışıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin və xalqımızın həyatını kökündən dəyişməklə yanaşı, həm də Azərbaycanın həyatında yeni mərhələnin əsasını qoydu:"YAP tarixi zərurətdən yaranaraq, qısa zaman kəsiyində ümumxalq partiyaya çevrildi və bu gün 700 mindən artıq üzvü ətrafında birləşdirib".

Tədbirdə YAP fəallarından Zərnişan Tanrıverdiyeva, Sərdar Babayev və İlqar Baxşəliyev çıxış ediblər.Bildirilib ki, nüfuzlu və qüdrətli ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası 25 ildə çətin və şərəfli tarixi yol keçib. Yeni Azərbaycan Partiyasının ümummilli partiya olduğu, bu gün bu şərəfin və qürurun hər kəs tərəfindən yaşandığı qeyd olunub. Yeni Azərbaycan Partiyası təkcə partiya üzvlərinin deyil, həm də qəlbi hər zaman vətənə sədaqət və sevgi ilə dolu olan hər kəsin partiyası olduğu bildirilib.

Kommunal Təsərrüfatı İdarəsi ərazi ilk partiya təşkilatının sədri Nəcibə Həsənova çıxışında YAP-ın yaranmasının müasir tariximizin ən mühüm ictimai-siyasi hadisələrindən biri olduğunu bildirib:"Bu gün siyasi mübarizələrlə dolu şərəfli bir yol keçən Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin avanqard qüvvəsi kimi xalqımızın həyatında mühüm rol oynayır. YAP hər zaman dünəninə hörmət və gələcəyinə rəğbətlə yanaşır. Bu da partiyamızda yaşlı nəsillə bərabər, qadınlara və gənclərə olan inamın təcəssümüdür. Ona görə də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının nüfuzu gündən-günə artmaqdadır. Sıralarını daim kəmiyyət və keyfiyyət etibarilə genişləndirən Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyası kimi xalqımızın həyatında öz sözünü deməyə qadir olan partiyadır".

YAP üzvlərindən Adil Əhmədov, Sahib Həsənov və Saleh Qəhrəmanov çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyası dövlətçiliyə və xalqa xidmət edən edən ümumxalq partiyasıdır.

Hava Məlumat Bürosu ərazi ilk partiya təşkilatının sədri Eldəniz İbadov partiyanın keçdiyi yola qısa nəzər salıb. E.İbadov bildirib ki, hakim partiya Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ağır sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Yarandığı vaxtdan ölkənin ictimai-siyasi həyatına həlledici təsir göstərən hakim partiyanın qurucusunun dünya miqyaslı siyasətçi, Azərbaycan xalqının inandığı və sevdiyi dahi bir Şəxsiyyətin olmasının bu prosesdə mühüm və əhəmiyyətli rol oynadığını vurğulayıb.

YAP-ın fəallarından Arif Abdullayev, Səttar Hacıyev və Turanə Əhmədzadə çıxış ediblər. Hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətləri sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunubsaxlanılmasında və inkişaf etdirilməsində Yeni Azərbaycan Partiyasının xidmətlərinin danılmaz və misilsiz olduğu vurğulanıb.

**ZÜMRÜD**

*Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatı, rayon Mədəniyyət Mərkəzi ilk partiya təşkilatı yanında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar "Heydər Əliyev Azərbaycan Mədəniyyətinin hamisidir" mövzusunda geniş tədbir keçirib. Tədbir Göyçay rayon Mədəniyyət Mərkəzində baş tutub.*



# YAP Göyçay rayon təşkilatı silsilə tədbirlərini uğurla davam etdirir

## Sahib Şükürov: "Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətində Azərbaycan mədəniyyətinin davamlı inkişafı müstəsna yer tutub"



Tədbiri YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov açaraq, Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına daim böyük önəm verdiyini bildirib, Ümummilli Liderimizin bu sahəyə göstərdiyi diqqət və qayğıdan danışıb: "Mədəniyyətimizin inkişafında Heydər Əliyev mərhələsi XX əsrin 70-ci illərinin əvvəllərindən başlayıb və həmin dövrdə geniş mədəniyyət müəssisələri şəbəkəsinin formalaşdırılması, mədəniyyət sarayları və mədəniyyət evləri, kitabxanalar və klublar, muzeylər və musiqi məktəbləri üçün möhtəşəm binaların tikdirilməsi ənənəsi də, məhz Ulu Öndərimiz Heydər Əliyevə məxsusdur. Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətində Azərbaycan mədəniyyətinin davamlı inkişafı müstəsna yer tutub".

Göyçay rayon Musiqi Məktəbinin direktoru Rövşən Zamanov isə, çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün həyat fəaliyyətini Azərbaycan xalqının və respublikamızın hərtərəfli inkişafına, azərbaycançılıq ideyasının milli şüurda qərarlaşmasına, müstəqil dövlətçiliyin möhkəmlənməsinə, Azərbaycan mədəniyyətinin və incəsənətinin bütün dünyada tanıdılmasına həsr edib: "Dahi rəhbər siyasi dövlətçilik fəaliyyətində Azərbaycanda digər sahələrlə yanaşı, mədəniyyət və incəsənətin də davamlı tərəqqisi yolunda böyük və əvəzsiz tarixi xidmətlər göstərib".

Daha sonra mədəniyyət işçiləri, eyni zamanda, YAP fəallarından olan Aytən Hacızadə Könül Bayramova, Nərgiz Nəbiyeva, Güllü Paşayeva çıxış edərək, bildiriblər ki, Azərbaycan mədəniyyət və incəsənətinin inkişafında müstəsna rol oynayan Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu 34 il müddətində milli dəyərlərimizə xüsusi önəm verərək, onu dünyaya tanıdıb. Bu mədəniyyət Azərbaycan tarixini özündə yaşadır. Görkəmli dövlət xadimi Heydər Əliyev, məhz bu prizmadan mədəniyyətimizə yanaşaraq, onun coğrafi sferasının genişliyinə diqqət ayırıb. Bu gün dünyada Azərbaycan mədəniyyətinin əks-sədası xalqımızın böyük oğlu Heydər Əliyevin bu sahədə qoyduğu təməlin bəhrəsidir.

Sonda tədbir iştirakçılarını Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibəti ilə təbrik etdilər. Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə cansağlığı və xoşbəxtlik arzuladılar.

**R.RƏSULOV**

## Yaxın günlərdə Almaniya, İsrail və Qətərə nar şirəsinin ixracına başlanılacaq

Almaniyanın Köln şəhərində keçirilmiş "ANUGA" Beynəlxalq Ərzaq Sərgisi çərçivəsində Almaniya, İsrail və Qətərə nar şirəsinin ixracına dair müqavilələr imzalanıb. Yaxın günlərdə bu ölkələrə nar şirəsinin ixracına başlanılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) vitse-prezidenti Yusif Abdullayev məlumat verib.

## Bakı-Tbilisi-Qars dəmir yolu ilə yüklər 16-18 saata daşınacaq

Bakı-Tbilisi-Qars dəmir yolu ilə yüklər 16-18 saata daşınacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolları arasında ilk yüklərin keçirilməsi üçün müqavilələr hazırlanıb. İlk olaraq 400 min tona yaxın taxıl yükləri, Rusiyadan gələn kömürlərin, taxtanın keçirilməsi üçün danışıqlara başlanılıb.

# ADPU-da "Azərbaycan-Türkiyə münasibətləri" II Beynəlxalq Elmi Konfransı öz işinə başlayıb



Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Turizm və Menecment Universitetinin və Türkiyə Respublikasının Kastamonu Universitetinin birgə təşkilatçılığı ilə ADPU-da "Azərbaycan-Türkiyə münasibətləri" II Beynəlxalq Elmi Konfransı öz işinə başlayıb. Konfrans iştirakçıları əvvəlcə Fəxri Xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək, abidəsi önünə əklil qoyublar. Görkəmli oftalmoloqalim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad edilib, məzarı önünə gül dəstələri düzülüb. Sonra konfrans iştirakçıları Şəhidlər Xiyabanında Azərbaycanın ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda şəhid olmuş soydaşlarımızın məzarlarını və Türk Şəhidliyi Abidəsini ziyarət edərək "Əbədi Məşəl" kompleksi, həmçinin, Türk Şəhidliyi Abidəsinin önünə gül dəstələri düzüblər.

Beynəlxalq elmi konfransın plenar iclası ADPU-nun Böyük akt zalında keçirilib. Öncə Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndirilib.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov plenar iclası giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan və Türkiyə Ulu Öndər Heydər Əliyevin müdrikliklə söylədiyi "Biz bir millət, iki dövlətik" fikrinə sadiq qalaraq müxtəlif sahələrdə, o cümlədən, təhlükəsizlik, iqtisadiyyat, energetika, ticarət, hərbi-texniki və digər sahələrdə sıx əməkdaşlıq edirlər. Yüksək səviyyəli qarşılıqlı əlaqələr, ölkələrimizin həyata keçirdiyi çoxsaylı birgə layihələr ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsinə böyük töhfələr verir. Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verirlər. Hər iki ölkənin rəhbərlərinin siyasi sahədə uğurla həyata keçirdiyi əməkdaşlığı universitetlər elm və təhsil sahəsində müvvəffəqiyyətlə davam etdirirlər. Bu gün keçirilən beynəlxalq elmi konfrans da bu əməkdaşlığın bariz nümunəsidir.



Kastamonu Universitetinin rektoru, professor Seyit Aydın çıxış edərək, konfransın keçirilməsinə görə, ADPU-nun və ATMU-nun rəhbərliyinə təşəkkür edib. Bildirib ki, konfrans türk və müsəlman dünyasının böyük mütəfəkkiri İsmayıl bəy Qaspıralının "dildə, işdə, fikirdə birlik" ideyasının əyani ifadəsidir. Konfrans iki qardaş ölkənin əlaqə və münasibətlərinin inkişafına müsbət təsir edəcək.

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru, dosent İlham Mədətov çıxışında qeyd edib ki, Azərbaycanla Türkiyə arasında münasibətlər həmişə yaxşı olub. Türkiyə 1918-ci ildə Azərbaycan Xalq Cümhurriyyətini tanıyan birinci ölkə olmuşdur. 1991-ci ildə də Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkə, məhz Türkiyə olmuşdur. Bu gün Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə inkişaf edir. Türkiyə Azərbaycanda keçirilən bütün beynəlxalq layihə və tədbirlərdə fəal iştirak edir. Azərbaycan-Türkiyə münasibətlərinin yüksək səviyyədə olması hər iki ölkənin güclənməsinə kömək edir.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral konfransın keçirilməsindən məmnunluq duyduğunu ifadə edib və konfransın təşkilatçılarına təşəkkür edib. Səfir vurğulayıb ki, dostluq və qardaşlıq Türkiyə-Azərbaycan münasibətlərinin təməl prinsiplərini təşkil edir. İki qardaş ölkə arasında münasibətlər bütün sahələrdə dinamik inkişaf edir. Bu münasibətlərin miqyası gələcəkdə daha da genişlənəcək.

Plenar iclasdan sonra konfrans öz işini bölmə iclaslarında davam etdirib. Konfransın altı bölmədə keçiriləcək iclaslarında, ümumilikdə 83 elmi məruzə dinləniləcək. Qeyd edək ki, 3 gün davam edəcək beynəlxalq elmi konfrans oktyabrın 14-də başa çatacaq.

**ZÜMRÜD**

# "Səbailli gənclər "Ağ ölümə" yox deyir!"



Səbail rayon icra hakimiyyətində fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə rayon komissiyasının və rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə rayonun bütün orta və ali təhsil ocaqlarında narkomaniya əleyhinə aylıq çərçivəsində ekspert və mütəxəssislərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilir. "Səbailli gənclər "Ağ ölümə" yox deyir!" mövzusunda növbəti tədbir Badamdar qəsəbəsindəki 239 №-li tam orta məktəbdə keçirilib.

239 №-li tam orta məktəbin direktoru, əməkdar müəllim Sədaqət Əzimova çıxış edərək tədbirin məqsədi barədə məlumat verərək bildirib ki, bəşəriyyətin gələcəyi üçün ən dəhşətli bəla olan narkomaniyaya qarşı mübarizədə yalnız dövlətin deyil, eləcə də, cəmiyyətin hər bir üzvünün fəal rol oynaması çox zəruridir. Narkomaniyanın heç bir yaş sərhədi tanımayaraq cavanlaşmasını və genefond üçün mühüm təhlükə olduğunu bildirib.

Tədbirdə çıxış edən Səbail rayon Polis İdarəsinin rəis müavini, polis polkovniki Sadiq Mədətov ölkənin hər yerində narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkomaniya düçar olmuş şəxslərin sağlam həyata qaytarılması, qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı qarşıya ciddi vəzifələr qoyduğunu qeyd ediblər. Bildirib ki, narkomaniya cəmiyyətimizə, dövlətimizə və ümumilikdə, bəşəriyyətə dəyəri ölçülməyəcək qədər fəsadlar vurur. Tədbirdə çıxış edənlər-İçərişəhər "Həzrət Məhəmməd məscidi" dini icmasının axundu Hacı Sadiq Əsgərov, Səbail RPİ-nin əməkdaşları mayor Ədalət Ağayev, baş leytenantlar Bəhrəm Qasımzadə və Pərviz Cavadov, müharibə veteranı Nizaməddin Məsməliyev yeniyetmələrə narkomanlardan uzaq durmaq və cəmiyyətdə bu bəlaya qarşı mübarizə aparmaq üçün tövsiyələr və dəyərli məsləhətlər veriblər.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilərək onları maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadları ilə bağlı film nümayiş etdirilib.

**Rəfiqə HÜSEYNOVA**

## Avropa Şurası öz prinsiplərinə hörmət etmədi

AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi qərəzli qətnamədən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, eləcə də, Müsavat başqanı Arif Hacılı çox sevincək və razı qalmış bir məqam nümayiş etdirirlər. Bu baxımdan, demək olar ki, Azərbaycanla bağlı məkrli planların həyata keçirilməsində ermənilərlə dağıdıcı müxalifətin maraqları üst-üstə düşür.



**Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli:**

- Təəssüflər olsun ki, dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslər AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi qərəzli qətnamədən çox sevincək oldular və razı qalmış bir məqam nümayiş etdirirlər. Onlar başa düşmürlər ki, burada Azərbaycan dövlətinin imicini zədələmək cəhdləri durur. Heç də təsadüfi deyil ki, Ermənistan hakimiyyəti və müxalifəti buna sevinir. Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən liderlər Azərbaycan dövlətinə ziyan dəyməsini istəyirlər. Dünya təcrübəsində belə şeyə rast gəlinməyib ki, ölkə müxalifəti dövlətin zərərinə olan hadisəyə sevinmiş olsun. Amma çox təəssüflər olsun ki, bizdə belədir. "Milli Şura", AXCP və Müsavat kimi radikal qurumlar ümid edirlər ki, guya Azərbaycanla bağlı qərəzli qətnamənin qəbul edilməsi bunların xeyrinə olacaq. Amma təbii ki, belə bir şey baş verməyəcəkdir. Hər zaman olduğu kimi, bu dəfə də müxalifətin Azərbaycanla bağlı istəkləri heç vaxt reallaşmayıb və reallaşmayacaqdır. Yüz minlərlə bizim qaçqınların hüququnu görməyib, bir neçə adamın hüququnu görən Avropa Şurasının səyləri nəticəsiz qalacaq. Ümumiyyətlə, demək olar ki, belə bir atalar misalı var ki, "pişiyin əli ətə çatmayanda, deyir iylənib". Bu müxalifət də, hakimiyyətə gəlmək şanslarını itirdiklərini başa düşdüklərindən, güclərini verib-lər Azərbaycan dövləti və xalqı haqqında hədyanlar, şər və böhtan səsləndirməyə.



**Siyasi şərhçi Azər Həsrət:**

- Ermənilərlə dağıdıcı müxalifətin AŞPA-nın Azərbaycanla bağlı qərəzli qətnaməsinə sevinmələrində təəccüblü bir şey yoxdur. Bu adamlar Azərbaycana qarşı qəbul edilən istənilən sənədin və atılan istənilən addımın İlham Əliyevin hakimiyyətini zəiflədəcəyini düşünüb, sevincək olurlar. Eləcə də, ermənilər. Ona görə bu dəfə də, belə şadyanalıq içindədirlər. Amma bir şeyi unudurlar ki, bu gün Azərbaycanda elə bir xalq-hakimiyyət vəhdəti var ki, AŞPA kimi qurumlar yüz belə sənəd qəbul etsələr də, ölkədəki sabitliyi heç kim poza bilməyəcək. Ona görə də, qoy sevinsinlər. Bir müddət sonra yenə də kədərli anlara dönməli olacaqlar.



**BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı:**

- Əslində, AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi qərəzli qətnaməsinə radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin sevinməsi biabırçı bir haldır. Nəyə sevinirsiniz? Siz müxalifətçilər ona sevinirsiniz ki, həmin beynəlxalq təşkilatlarda ermənilər də var və düşmənimizin olduğu bir qurumda Azərbaycana qarşı bu cür təzyiqlərin olmasına sevinmək, ən azından ayıbdır. Çünki burada dövlətin mənafeyindən söhbət gedir. Onlar çox yaxşı bilirlər ki, burada söhbət iqtidardan deyil, məhz Azərbaycan dövlətindən gedir. Azərbaycan dövlət olaraq, həmin o qurumlarda, Avropa Şurasında təmsil olunur. Dağlıq Qarabağ kimi problemi olan bir dövlətin və erməni kimi düşməni olan Azərbaycanın əleyhinə qətnamə qəbul olunur, bizim radikal müxalifət düşərgəsini təmsil edən liderlər isə buna sevinirlər. Bu utanc və başıaşağılıq gətirən bir hadisədir. Avropa Şurası və bir sıra beynəlxalq qurumlar, müəyyən güc mərkəzlərinin əlində bir çomaq missiyasını yerinə yetirir. Həmin ölkələrə təzyiq olunması üçün əvvələr bir sıra təşkilatlardan və QHT-lərdən istifadə edirdilər. İndi də Avropa Şurasından bəzi ölkələrə təzyiq etmək niyyətinə düşüblər. Yəni istəmirlər ki, Avropa Şurasında Azərbaycan fəaliyyətini davam etdirsin. Ancaq biz Avropa Şurasında fəaliyyətimizi davam etdirməliyik. Avropa Şurası da öz üzərinə düşən öhdəliklərə ədalətlə yanaşmalıdır. Yəni ikili standart ortaya qoymamalıdır. Başqa ölkələrlə müqayisədə Azərbaycana münasibətdə bu cür mövqe tutmamalıdır. AŞPA öz prinsiplərinə hörmət etməlidir.

**GÜLYANƏ**

# "Milli Şura"nın mitinqləri, yaxud mühacir bazarının bazarkomu kimdir?

## Növbəti faktlar üzə çıxır...



*AXCP sədri Əli Kərimlinin egidası altında baş tutan "Milli Şura"nın uğursuz mitinqlərinin bir sıra maraqlarla yanaşı, "mühacir biznesi"nə də xidmət etdiyi kimsəyə sirr deyil. Şəxsi maraqlarını təmin etmək üçün xarici ölkələrə köç etmək istəyənlərin arzularını reallaşdıracağını vəd edən Ə.Kərimli həmin insanlar qarşısında bir şərt qoyur - gəl mitinqə, şəkil çəkdir, polislə mübahisə et, təxribatçı hallara rəvac ver və...Şengen vizası cibindədir!*

İlk diqqəti cəlb edən amil budur ki, uzağı 1000-1200 nəfərin yığışdığı və aksiyanın keçirildiyi məkanın dolmadığı bir yerdə istər Ə.Kərimlinin, istərsə də yan-yörəsindəki adamların hakimiyyətə qarşı etdikləri çıxışlarının arxasında dayanan əsas məsələ "mühacir biznesi"ndə daha çox sifarişçi əldə edib, onlardan maddi gəlirlər əldə etməkdir. Yəni, "Milli Şura"nın mitinqləri siyasi deyil, bazar məqsədi güdür. Ə.Kərimli isə bu bazarın bazarkomu rolunda çıxış edir.

Yeri gəlmişkən, bu kimi faktları yalnız ictimai-siyasi hadisələri izləyərək, onları təhlil edən jurnalistlər deyil, elə müxalifət partiyalarına sədrlik edən şəxslər də bildiriblər.

### MDHP sədri Fərəc Quliyev: "Dəfələrlə mətbuatda göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir, saxta arayışlar verirlər..."

Misal üçün, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev sözügedən məsələ ilə bağlı mətbuata açıqlamasında bildirib ki, əslində, "mühacir biznesi" vasitəsilə maddi gəlir əldə edən dağıdıcı müxalifət partiyalarının sədrləri bir çox hallarda insanları aldatmaqla da məşğuldurlar. Daha doğrusu, ortada dələduzluq faktları da var.

"Bir insan mitinqə gəlib şəkil çəkdirməklə xaricə gedə bilməz"- deyə qeyd edən MDHP sədri sözlərinə əlavə olaraq bildirib ki, ora (hər hansı Qərb ölkəsinə-red.) gedənləri kamplarda yerləşdirəndə, hansı təşkilata üzv olmaları barədə arayışlar və ya onların biletləri istənilir: "İndiyə qədər dəfələrlə mətbuatda göstərilib ki, konkret hansı partiya sədrləri nə qədər pulun müqabilində saxta üzvlük vəsiqələri düzəldir, saxta arayışlar verirlər..."

Müxalifətçi deputata görə, məlum partiya sədrləri var ki, hansı işlərlə məşğul olduqları göz önündədir. O cümlədən, belə insanların getmələrinə saxta yollarla şəraitlər yaradan və özlərini müxalifətin "lideri" adlandıran kəslər bu işdə əsas günahkar hesab edilməlidirlər: "Mitinqlər də məqsədli şəkildə keçirilir. Orada bir müddət iştirak edərək, sonradan ölkəni tərk edib, xaricdə ölkəmiz əleyhinə fəaliyyət göstərənlər var. Onlar milli maraqlarını və dövlətini yaxşı bir həyata dəyişməkdə maraqlıdırlar".

### "Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil"

"Azərbaycan mübarizə aparan bir ölkədir" deyən deputat fikirlərinə əlavə olaraq deyib ki, aprel müharibəsi vaxtı kənardan çoxsaylı insanlarımız, hətta təhsillərini yarımçıq qoyub döyüşmək üçün gələnlər oldu. Bu baxımdan, ölkənin imicinə xaricdən zərbə vuranlar qədər onların gedişinə şərait yaradanlar günahkardır: "O şəraiti də partiya sədrləri saxta arayışlar verməklə yaradırlar. Bunu artıq sistem halına salıblar. Onları ifşa etmək mümkündürsə, buna laqeyd yanaşmaq doğru deyil. Belə olanda, digərlərinin əl-ayaqları açılır. Hesab edirəm ki, Baş Prokurorluq da daxil olmaqla, hüquq-mühafizə orqanları bu məsələlərdə yarımçıq iş görməli deyillər. Belə şəxslər mütləq cəzalandırılmalıdır. Hətta xaricə gedib, özlərini erməni kimi təqdim etməkdən çəkinməyənlər də var. Belə faktlar da var".

Göründüyü kimi, F.Quliyev ortada konkret ad çəkməsə də, fakt budur ki, mühacir biznesi ilə məşğul olan AXCP sədri Ə.Kərimli və sairləri, bilavasitə cinayət əməlinə yol vermiş olurlar və bunun qarşısını almaq artıq bir zərurətə çevrilib.

### "Ağ Partiya" sədri Tural Abbaslı: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi, istər ictimai xadimlər cəzalandırılmalıdır"

Ortada konkret cinayət halının olmasını yalnız MDHP sədri F.Quliyev deyil, eyni zamanda, digər müxalifətçi partiya sədrləri də etiraf edirər. Misal üçün, sabiq müsavatçı, "Ağ Partiya" sədri, Tural Abbaslı da belə düşünür ki, saxta yollarla mühacirətə gedənlərin əsas yardımçıları dağıdıcı düşərgənin "liderləridir". "Artıq heç kəsə sirr deyil ki, mühacirətə saxta yolla gedən bir çoxları getdikləri dövlətlərin aidiyyəti qurumlarına rəsmi sənədlər təqdim edirlər"-deyən T.Abbaslıya görə, adətən, bu sənədlər saxta və pul qarşılığında əldə edilmiş sənədlər olur: "Belə halların qarşısı alınmalı və insan taleləri ilə alver edən istər siyasi və istərsə də ictimai xadimlər cəzalandırılmalıdır".

Son olaraq, belə qənaətə gəlmək olar ki, bu gün AXCP sədri Ə.Kərimli "Milli Şura"nın adı altında maddi maraqlarını, sözügedən biznesini inkişaf etdirirsə, bu faktın özü hüquqi olaraq qiymətləndirilməldir. Əks halda, bu bazarın bazarkomu öz biznes şəbəkəsini daha da genişləndirib, daha böyük cinayətlərə əl ata bilər. Xüsusilə, 2018-ci ildə keçirilməsi nəzərdə tutulan mühüm siyasi-ictimai hadisə - prezident seçkiləri ərəfəsində Ə.Kərimlinin iştahası izafi şəkildə artmağa başlayacaq.

**Rövşən NURƏDDİNOĞLU**

# Külli miqdarda xarici valyutanın ölkədən qanunsuz yolla aparılması cəhdinin qarşısı alınıb

Külli miqdarda xarici valyutanın ölkədən qanunsuz yolla aparılması cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda xarici valyutanın ölkənin gömrük sərhədindən qanunsuz yolla aparılması cəhdinin qarşısını alıblar.

Bakı-Tehran aviareysi ilə getmək istəyən İran İslam Respublikasının vətəndaşı gömrük nəzarətindən "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə etməklə keçsə də, lakin əl yükündə olan və əvvəlcədən mütləq qaydada bəyan etməli olduğu xarici valyutanı gömrük orqanına təqdim etməyib. Vətəndaşın hərəkətləri şübhə doğurduğu üçün o, saxlanılıb və təkrar yoxlamaya dəvət olunub. Yoxlama zamanı vətəndaşın çamadanının içərisində, əvvəlcədən gömrük nəzarətinə təqdim edilməyən, şifahi, elektron və ya kağız üzərində yazılı formada bəyan olunmayan 950 ədəd - hər biri 100 ABŞ dolları nominalında əsginaslar olmaqla, cəmi 95.000 ABŞ dolları aşkar olunub. Faktla bağlı araşdırma aparılır.



# Əli Kərimlinin erməni, Yaqland və CHP məhəbbəti



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Bu günlərdə AŞPA-nın baş katibi Yaqlandın Azərbaycanın yürütdüyü müstəqil siyasətinə və demokratik dəyərlərinə qarşı əsl avropalı həyasızlığı nümayiş etdirməsi və bu ürkəbulandırıcı olayın arxasından erməni lobbisinin çıxması, artıq nəyin necə olduğunu kifayət qədər göstərmiş oldu. Yəni söhbət ondan gedir ki, Azərbaycana qarşı istiqamət almış və düşməncəsinə atılmış bu addım, bilavasitə ölkəmizə, xalqımıza və milli dəyərlərimizə qarşı oynanılan çirkin oyunun tərkib hissəsidir. Halbuki əleyhimizə səs verən deputatlar arasında, təəssüf ki, 3 nəfər CHP-i deputat da olub. Söz yox ki, meşə çaqqalsız olmaz və 3 nəfər xain CHP-çinin qərarını bütün partiyaya aid etmək də doğru olmazdı. Çünki bildiyimiz kimi, həmin CHP-çilərin ölkəmiz əleyhinə səs vermələri elə həmin partiyanın rəhbər orqanları tərəfindən sərt şəkildə qınanılıb. Türkiyə mətbuatı partiyanın sədri Kılıcdaroğlunun bu addımına kəskin hiddət göstərdiyini yazır. Amma...***

Amma olan-olub və ölkəmiz əleyhinə qəbul edilmiş qətnamələrdəki 3 CHP-çinin səslərini geri götürmək mümkün deyil. Fakt isə budur ki, erməni lobbisinin pulları millət tanımadan bəzi ciblərə dolaraq Azərbaycana qarşı xərclənməkdə davam edir və buna sevinənlər arasında azərbaycanlı deyilməyəcək qədər aşağı və səviyyəsiz şəxs - AXCP sədri Əli Kərimli də var! Bu gün Ə.Kərimli öz satqın ətrafı ilə yallı gedir ki, AŞPA Azərbaycan əleyhinə hər hansı bir qərar qəbul edib. Bu yerdə deyərlər, Allah içimizdəki xain düşməndən saxlasın! Ölkəmizin maraqlarına qarşı qətnamə qəbul olunur, bunlar isə baş verənlərdən ermənilər qədər (!) həzz alır, sevinir, çırtıq çalıb göbək atırlar. Nə deyəsən, sözün bitdiyi yer elə buna deyirlərmiş sanki...

Qeyd etmək yerinə düşərdi ki, Ə.Kərimlinin CHP sevgisi varkən, ona bir xatırlatma etmək heç də pis olmazdı. İkinci Dünya savaşı dönəmində iqtidarda olan CHP azərbaycanlılara qarşı elə bir xəyanət etmişdi ki, onu bu gün də xatırlayanda, adamın tükləri biz-biz durur. 1944-cü ildə Stalinin repressiv hakimiyyətinin əlindən sərhədi keçərək Türkiyəyə pənah aparan 146 nəfər azərbaycanlı sonda həmin dövr CHP rəhbərliyi tərəfindən SSRİ "NKVD"-nə təhvil verildi və bu azərbaycanlılar geri qaytarılarkən, elə sərhəddəcə güllələndilər. Nə onların CHP-çi dövlət məmurlarına yalvarışları, onları satmamaları üçün ah-nalələri heç bir təsir göstərmədi. Nəticədə 146 azərbaycanlı oğul Stalinin gülləsinə tuş gəldi!

Görəsən, Ə.Kərimli, ən azından, bu olayı xatırlayıb, Avropa Şurasında Azərbaycana qarşı səs verən 3 CHP-çinin əməllərinə şadyanalıq etdiyi zaman utanırmı? Əsla! Hətta ən məhsuldar fahişədə utanan-qızaran sifət varsa, AXCP sədri Ə.Kərimlidə həmin sifət yoxdur, olmayıb, olmayacaq da! Onun üçün erməni marağı və bu marağı dəstəkləyənlər qohumlarından da irəlidir. Əbəs yerə deyil ki, o boyda Kərimovlar külfəti - ağsaqqallı-qarasaqqallı, rəsmən bu ünsürdən imtina ediblər!

İndi, bu adam düşüb ortaya və ölkəmizin mənafeyinə zidd olacaq hər bir nüansı özünün "qələbəsi" kimi təqdim etməyə cəhd göstərir. Amma bu, belədirmi? Ə.Kərimli həqiqətənmi "qalib" olan məxluqdur? Yox, əlbəttə ki! O, sadəcə, belə murdar oyunların tərkib hissəsinə çevrilməklə, daha da idbarlaşır və cəmiyyətdən, normal düşüncəli ictimai rəydən təcrid olunur. Həqiqətən də, qarşıdan gələn ildə baş verməsi gözlənilən mühüm ictimai-siyasi olayda nə isə qazanacağını hesab edirsə, kökündən yanılır. O, bəri başdan itirib artıq və yaxşı olardı ki, elə bəri başdan da gedib Yaqlandın, sonra da 3 nəfər satılmış CHP deputatının qucaqlarında otursun, hər halda, növbə ilə, yəni "oçeredlə"...

SİYASİ RAKURS

# Hüseyn Abdullayevin ağzı yenə sulanıb

## *Yaxud deputat olarkən, qaz vurub qazan dolduran milli satqın xarici havadarlarına nökərçilik edir, həbsxanadakı vəziyyətini isə gizlədir!*



***Vaxtilə bu dövlətin çörəyini yeyən, lakin sonradan yediyi çörəyə xilaf çıxan sabiq deputat Hüseyn Abdullayev xaricə mühacirət etdikdən sonra onun haqqında üzə çıxan şok faktlar, bir daha sübut etdi ki, o, uzun illər özünü hakimiyyətə "sadiq" fərd kimi göstərməklə, əslində, çirkin əməllərlə məşğul olub. Əbəs yerə deyil ki, onun ölkənin müxtəlif yerlərində qanunsuz mülkləri aşkara çıxdı və digər maliyyə maxinasiyaları bəlli oldu. O cümlədən, H.Abdullayev satqın və xəyanətkar müxalifətin cinahına keçdikdən sonra onun maskası yırtıldı, əsl simasızlığı və şəxsiyyətsizliyi ictimai rəyə də tanındı.***

Görünür, bu baxımdan, H.Abdullayevin ağzı sulanmağa başlayıb və o, 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkilərinə namizədliyini irəli sürəcəyini feysbuk sosial şəbəkəsində yazıb. Ağız dolusu "korrupsiyadan" və s. məsələlərdən yazan bu milli xain, görünür, öz əməllərini unutdurmağa cəhd edib. Ancaq ictimai rəy onun cinayətkar əməllərini unutmayıb və lazımdırsa, barəsində bir daha faktları təqdim edə bilərik.

**Hüseyn Abdullayev zamanında ən böyük cinayət əməllərinin başında dayanırdı və dövlət onun bu əməllərini aşkar edərək, cəzalandırdı!**

Beləliklə, kimdir H.Abdullayev? Ümumiyyətlə, bu fərdin keçmişinə baxanda, fəaliyyətini analiz edəndə, "haqq yerini tutar" məsəli bir daha yerinə düşür. Çünki HAbdullayevin heç də millət tərəfindən deyil, məhz təsadüfən deputat olduğunu izah etməyə də ehtiyac qalmır. Belə ki, onun fəaliyyəti qanunsuz əməllərlə bol olub. Məsələn, onun sökülən binası, eləcə də digər mülkləri də cinayət əməllərinin nəticəsində əldə edilib. Yüzlərlə insanın naləsi üzərində qurulan səltənətin bu şəkildə məhv olacağı isə fövqəlvarlığın - Allahın verdiyi bir qiymət olaraq dəyərləndirilə bilər.

Məsələn, kimsəyə sirr deyil ki, H.Abdullayevin özünün qanunsuz silahlı dəstəsi var idi. Hətta deyilənlərə görə, bu adam 300 (!) nəfərdən ibarət dəstə saxlayırdı. Onların işləri-gücləri kimlərinsə mülklərini, torpaqlarını və s. əmlaklarını zorla əlindən almaq kimi hadisələr törətməyə hesablanmışdı. Yəni Abdullayevin qoçu dəstələri qanunsuz işlər görürdülər, adam döyürdülər, "razborka"lara gedirdilər, iş adamlarını, sahibkarları döyüb, əllərindən pullarını alırdılar. Qısası, bu fərd, bilavasitə reketliklə məşğul olub və elə "Quska" ləqəbini də həmin dövrdə götürüb. Yəni indi car çəkib qanundan, haqdan, ədalətdən danışan, hətta həyasızcasına "prezidentliyə namizəd olacam" iddiası ilə özünü yuyulmamış qaşıq kimi ortalığa atan H.Abdullayev zamanında ən böyük cinayət əməllərinin başında dayanırdı və dövlət onun bu əməllərini aşkar edərək, cəzalandırdı!

**Sabiq rəis: "O tutulanda da yanında heç kim yox idi. Kişi kimi yata da bilmədi. Həbsxanada "sındı""**

Başqa tərəfdən, H.Abdullayevin xarakterində də ciddi problemlərin olduğu hər kəsə bəlli idi. Hətta yaxın ətrafı, vaxtilə dostluq elədiyi şəxslər də bunu etiraf edirlər. Misal üçün, bir müddət öncə həbsdən çıxan və adının açıqlanmasını istəməyən keçmiş polis rəisi H.Abdullayevin onunla bağlı maraqdoğurucu məlumatları ictimaiyyətə çatdırıb. Onun sözlərinə görə, H.Abdullayevin ən əsas özəlliklərindən biri satqınlıq olub: "Həm H.Abdullayev, həm də onunla dostluq edən Rza İbadov dəfələrlə mövqelərindən sui-istifadə edərək, dövlətə qarşı çıxıblar. Allah sonda kimin kim olduğunu göstərdi. Sonradan hər ikisi - həm Rza İbadov, həm də Hüseyn Abdullayev dövləti satdılar. İndi ikisi də gedib Rəsul Quliyevlə oturub-dururlar...Onlar o qədər adama pislik etdilər ki... Axırda nə oldu? Rzanın taleyi dağıldı, özü didərgin düşdü. Onlara qarşı həmişə yaxşı olmuşam. Kişi kimi arxalarında durmuşam".

Keçmiş polis rəisi Hüseyn Abdullayevin həbsxanada hansı vəziyyətə düşməsi ilə bağlı dedikləri isə daha biabırçı faktdır! Sən demə, bu gün var-gəl edən, özünü "sınmaz qəhrəman" kimi cəmiyyətə sırımağa çalışan Hüseyn Abdullayev həbsxanada çətinə düşən kimi ağlayırmış! SİTAT: "İndi "Quska"nın yanında heç kim yoxdu. O, tutulanda da, yanında heç kim yox idi. Kişi kimi yata da bilmədi. Həbsxanada "sındı". Yaxınları girib kamerada ona-buna yalvarırdı. Müğənnilər çıxıb televiziyada bunun xahişini edirdilər. Əlaqə saxlayıb, məlumat alırdıq. Dustaqlar gəlib deyirdilər ki, "Quska" türmədə özünü dəliliyə vurub ağlayır. Anası girib kamerada ona uşaq kimi qaşıqla yemək yedirirmiş...Kürdəxanının rəisi Azər Seyidov özü mənə danışdı bunu. Dedi girdim kameraya "Quska"ya deyim ki, bura nazirlər düşüb, özünü "sındırma". Naranın üstünə çıxıb qışqırıb ki, gəlməyin, məni öldürmək istəyirsiniz. "Quska" Bayılda olanda olub bu hadisələr", - deyə sabiq polis rəisi bildirib.

**2018-ci il arzularını xəyal etməkdənsə, yaxşı olardı ki, öz feysbuk səhifəsində xəyanətkar və satqınçılıqları ilə yanaşı, düşdüyü bəlli vəziyyətlərini də açıqlayaydı...**

Bütün bunlar isə, onu göstərir ki, H.Abdullayev indiki durumuna düşəcək adam imiş. Şəxsi keyfiyyətləri çox aşağı olan bu adamın ölkədən kənarda kimlərisə ittiham etməsinin başqa adı yoxdur. Əgər bir adamın yaxın dostları onun satqın, xəyanətkar və cinayət törədərək başqalarının haqqını mənimsəməkdə ittiham edirsə, əlavə şərhə də ehtiyac qalmır. Bu baxımdan, Abdullayev radikal müxalifətin nəzarətində olan mətbuatda nə qədər hakimiyyət əleyhinə kampaniya aparmağa çalışsa da, xalq onun kim olduğunu, həmin o mülkləri hansı əyri yollarla əldə elədiyini çox yaxşı bilir. 2018-ci il arzularını xəyal etməkdənsə, yaxşı olardı ki, öz feysbuk səhifəsində xəyanətkar və satqınçılıqları ilə yanaşı, düşdüyü bəlli vəziyyətlərini də açıqlayaydı...

***Rövşən RƏSULOV***

# Cəmil Həsənli mitinq xəstəsidir

## *Təhmasib Novruzov: "Əli Kərimli və Cəmil Həsənli mənasız aksiyalar keçirməklə boş qalan ciblərini doldurmağa çalışırlar"*

***Dağılmağa məhkum olan "Milli Şura" müxtəlif pozucu aktlar hesabına vəziyyətdən çıxmağa və fəaliyyətini davam etdirməyə uğursuz cəhdlər göstərir. Ancaq batan gəmini xilas etmək mümkün olmadığı kimi, məhvolma ərəfəsində olan "Milli Şura"nı da xilas etmək mümkün olmayacaq. Onların ardıcıl aksiyalar keçirmələri də, sadəcə, xarici qüvvələrin sifarişi və tələbidir ki, bu aksiyalar da uğursuzluğa düçar olur. Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki Əli Kərimli və Cəmil Həsənli bekar, işsiz-gücsüz adamlar olduqlarından, heç bir mənası olmayan mitinqlər keçirirlər: "Ümumiyyətlə, onlar belə mitinqlər keçirməklə özlərini rüsvay və biabır bir vəziyyətə salırlar. Radikal müxalifət olan həmin şəxslərin bu aksiyaları keçirmələrinin başlıca səbəbi 2018-ci il prezident seçkilər ilə bağlıdır. Demək olar ki, Əli Kərimli və Cəmil Həsənli mənasız aksiyalar keçirməklə boş qalan ciblərini doldurmağa çalışırlar."***

T.Novruzov müxalifət partiya yetkililərinin mehriban düşmənlər olduqlarını bildirdi.

Qeyd etdi ki, müxalifət nə vaxt mehriban olub ki, indi də olsun: "Sadəcə olaraq, müxalifət liderlərinin özlərinə sərf edəndə və xarici qüvvələrin tapşırığı olanda, onlar hansısa bir məsələ ilə bağlı bir araya gəlirlər. Amma bu da, çox uzun çəkmir. Artıq uzun illərdir ki, müxalifət ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəlir. Amma buna baxmayaraq, yenə də müxalifət təmsilçiləri reallığı özündə əks etdirməyən xəyallara daləraq 2018-ci ildə keçiriləcək seçkilərə indidən hazırlıq görürlər. Əlbəttə ki, onların seçkilərə indidən hazırlıq görmələrinin heç bir nəticəsi olmayacaq. Yəni hər zaman olduğu kimi, bu seçkilərdə də müxalifət məğlub olacaq. Çünki onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin var olub-olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət sakitcə öz yerində otursun".

T.Novruzov onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə



isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. O cümlədən də, müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalar ortaya konkret ideya qoya bilmirlər. Onların ortaya nə isə ideya qoya bilməmələrinin səbəbi odur ki, bu partiyaların əksəriyyəti hansısa ideologiya əsasında formalaşan partiyalar deyil. Bir sözlə, həmin partiyalar ayrı-ayrı şəxslər ətrafında formalaşaraq, fəaliyyət göstərirlər. Belə olan halda da, sözügedən partiyaların iş fəaliyyəti də həmin şəxslərin şəxsi maraqlarına yönəlir".

***GÜLYANƏ***

# Azərbaycan yazıçıları və şairləri Ulu Öndər Heydər Əliyevin ədəbiyyata və mədəniyyətə hamiliyi və qayğısı haqqında

Azərbaycan yazıçıları hələ Sovet dövründə Ulu Öndər Heydər Əliyevin ədəbiyyata və mədəniyyətə qayğısı haqqında ətraflı və ürəkdən danışırdılar.

Görkəmli yazıçı İsmayıl Şıxlının dediklərindən: "Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimizə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, S.Vurğun kimi sənət ustalarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz...

Heydər Əliyevin işi çoxdur. Lakin O, vaxt taparaq bizim əsərləri oxuyur, öz fikirlərini söyləyir. Mən burada Heydər Əliyev yoldaşın icazəsi ilə bir sirri də açmaq istəyirəm. O, ayrı-ayrı əsərləri oxuduqdan sonra şəxsən görüşə imkan tapmadıqda, bizə-yazıçıların evinə zəng çalaraq, təşəkkürünü bildirir, mülahizələrini söyləyir və ağıllı məsləhətlərini verir. Əgər desəm ki, Heydər Əliyev yoldaş biz yazıçıların yaradıcılığı ilə şəxsən tanışdır, hamımızın haqqında təsəvvürü var, bizim əsərlərin zəif və yaxşı cəhətlərini bilir... bunu yalnız ədəbiyyatımızın qayğısını çəkən, onun dostu olan dövlət və partiya rəhbəri edə bilər".

Azərbaycanın xalq şairi Nəbi Xəzri Ulu Öndərin geniş erudisiyaya malik şəxsiyyət kimi tarixi və müasir mədəni irsə qayğısından bəhs edirdi: "Heydər Əliyev yoldaşın yüksək qayğı və humanizmin təzahürü olan açıq, mehriban, səmimi, prinsipial söhbətini, tövsiyələrini və məsləhətlərini xüsusi qeyd etməliyik. Heydər Əliyev yoldaşın sadəliyi və müdrikliyi, dözümü və səbri, valehedici yaddaşı, ürəklərdən keçənləri mahir bir sənətkar duyğusuyla oxumaq məharəti hamımızı qanadlandırır və ruhlandırır".

Akademik Mirzə İbrahimov deyirdi: "Heydər Əliyev yoldaş bir şəxsiyyət, bir partiya xadimi kimi bizim ədəbiyyatdan, "Avesta"dan Azərbaycan ədəbiyyatında "Dədə Qorqud"dan, bizim mütərəqqi, keçmiş Azərbaycanda yaşamış adamlardan, Zərdabi kimi adamlardan danışdı". O, daha sonra deyirdi: "Respublikamızın xalqımızın üzünü ağardan, başını uca eləyən bu böyük nailiyyətlərin qazanılmasında biz Azərbaycan KP MK-nın və onun birinci katibi Heydər Əliyev yoldaşın coşqun fəaliyyətini və böyük əməyini... xüsusi olaraq qeyd etməliyik".

Məşhur ədəbiyyat tənqidçisi və yazıçı Qulu Xəlilov isə nitqində deyirdi: "Mən istəyirəm ki, hər kəs öz sahəsində, vətəndaşlıqda, cəsarətdə, milli təpərdə, geniş ürəklilikdə Sizə-Heydər Əliyevə oxşamağa çalışsın". Doğrudan da, Heydər Əliyev öz yorulmaz fəaliyyəti ilə milli təpərə malik olan böyük dövlət xadimi idi.

Heydər Əliyev bilavasitə aşağıdakı tədbirlərin görülməsinin təşkilində iştirak etdi:

* "Azərnəşr"in 50 illik yubileyi qeyd olundu;
* "Yazıçı" nəşriyyatı yaradıldı;
* S.Rəhimovun 70 illik yubileyi keçirildi, ona Sosialist Əməyi Qəhrəmanı adı verildi;
* S.Rəhmanın 60 və 70 illik yubileyləri keçirildi;
* R.Rzanın 70 illik yubileyi keçirildi;
* Ə.Vəliyevin 80 illik yubileyi keçirildi;
* İ.Şıxlının 60 illik yubileyi keçirildi.

AMEA-nın müxbir üzvü Musa Qasımlı haqlı olaraq yazır: "Heydər Əliyevin fəaliyyətində şair və yazıçıların yubileylərinin təntənəli şəkildə keçirilməsi başlıca yerlərdən birini tuturdu. O, hakimiyyəti illərində, demək olar ki, hər gün yaradıcı adamlara qayğı göstərir, onlarla maraqlanır, mövcud olan problemləri dərhal həll edirdi. Azərbaycanın bütün Sovet tarixi ərzində azərbaycanlı yazıçı və şairlər, ilk dəfə olaraq, belə yüksək qayğı ilə əhatə olunmuşdular. Onun rəhbərliyi altında şair və yazıçıların yubileylərinin keçirilməsindən ötrü rəsmi qərarlar qəbul edilirdi".

Heydər Əliyevin təşəbbüsü ilə:

* H.Seyidbəyli mükafatlandırıldı;
* Q.Məmmədlinin 75 illiyi qeyd edildi;
* M.Dilbazinin 60 və 70 illiyi keçirildi;
* İ.Əfəndiyevin 60 illiyi qeyd edildi;
* N.Xəzrinin 50 illiyi keçirildi;
* İ.Qasımovun 60 illiyi keçirildi;
* İ.Şıxlının 60 illiyi qeyd edildi;
* Ə.Şərifin 85 illik yubileyi keçirildi;
* H.Abbaszadənin 60 illiyi qeyd edildi;
* B.Vahabzadə və X.Rza Moskvanın təzyiqlərindən qorundu.

Bundan başqa, Heydər Əliyev

* Şamaxıda ədəbiyyat muzeyi yaratdı;
* Klassiklərin yubileylərini keçirdi, adlarını əbədiləşdirdi (N.Gəncəvinin, İ.Nəsiminin, M.F.Axundovun və s.).

AMEA-nın müxbir üzvü Musa Qasımlı yazır: "Beləliklə, Heydər Əliyevin fəaliyyətində Azərbaycan ədəbiyyatına və ədəbi irsinə qayğı mühüm yerlərdən birini tuturdu. Əgər əvvəlki dövrlərdə ziyalılarla dil tapmaq respublika rəhbərləri üçün başlıca problem olmuşdusa, Heydər Əliyev ziyalıların, yaradıcı adamların dostuna, himayəçisinə, onlar isə Azərbaycan rəhbərinin fəal təbliğatçısına çevrilmişdilər. Yaradıcı ziyalıları mühafizə etməklə Heydər Əliyev istiqlal fikrini qoruyur və inkişaf etdirirdi. Onun bu fəaliyyəti, əsasən, aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: yazıçıların qurultaylarında iştirak edir, onlarla canlı ünsiyyət qurur, əsərlərini oxuyur, evlərinə zəng vuraraq, yaradıcılıqları haqqında öz mülahizələrini söyləyir, xalqın tarixi keçmişi və bu günü barədə əsərlər yazmağı tövsiyə edir, xalqla canlı ünsiyyətləri, yaradıcılıqları üçün şərait yaradır, xüsusi olaraq nəşriyyat, yaradıcılıq evi açır, yubileylərini keçirir, dövlətin yüksək orden və medalları ilə təltif olunmalarına əzmlə nail olur və mənzillə təmin edirdi. Azərbaycan rəhbəri xalqının klassik irsinə xüsusi qayğı göstərirdi. Heydər Əliyev Azərbaycan klassiklərinin yubileylərinin keçirilməsi barədə rəsmi qərarlar qəbul edir, onları təntənə ilə keçirir, əsərlərinin nəşrinə, səhnələşdirilməsinə, irslərinin təbliğinə nail olur, unutdurulmalarına imkan vermir, adlarını küçələrə, məktəblərə və kitabxanalara verməklə, heykəllərini qoymaqla xatirələrini əbədiləşdirir, ədəbiyyat muzeyləri yaradırdı.

Heydər Əliyev Azərbaycan jurnalistikasına da qayğı göstərir, jurnalistlərin qurultaylarında iştirak edir, mənzil və yaradıcılıq şəraitlərini yaxşılaşdırır, milli mətbuatın yubileyini keçirirdi.

Onun hakimiyyəti illərində yazıçı, şair, jurnalist cəmiyyətdə nüfuzlu və hörmətli hesab edilirdi. Azərbaycan ədəbiyyatına, yazıçı və şairlərə xüsusi diqqət və qayğı göstərməklə Heydər Əliyev özündən əvvəlki rəhbərlərdən xeyli irəli getmişdi. Azərbaycan ədəbiyyatı özünün bütün Sovet tarixi ərzində heç vaxt 70-80-ci illərdəki kimi qayğı ilə əhatə olunmamışdı. Bu dövr Azərbaycan ədəbiyyatının ölkədə və dünyada tanınması, yüksəlişi və tərəqqisi illəridir. Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı gözəl romanlar, poemalar və dram əsərləri yaradılaraq müxtəlif dillərə tərcümə edilirdi.

Xalqın ədəbiyyata həvəsi və ədəbi irsə qayğısı artırdı. Millətsevərlik təbliğatının ədəbiyyata, ictimai və siyasi mühitə sakitcə, ehtiyatla gətirilməsi, milli ruhun və milli hisslərin gücləndirilməsi Heydər Əliyevin tarixi xidmətlərindən biri idi. Heydər Əliyevin ədəbiyyat sahəsində həyata keçirdiyi tədbirlər xalqın həyatında mühüm rol oynayaraq, müstəqilliyin mənəvi və mədəni təməllərinin yaradılmasında əsas yerlərdən birini tutdu. Onun Sovet rejiminin başqılarından qoruduğu yaradıcı adamlar özü ilə bərabər 90-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinə cəsarətlə səs verdilər".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Soyuqdəyməyə son qoymaq üçün bunları edin!



Xalq kəlamına görə "müalicə olunmayan soyuqdəymə 7 gün, müalicə olunan isə bir həftə çəkər". Soyuqdəymə bizi tutan kimi aspirin, qaynar suya qatılan toz dərmanlarına müraciət edirik. Lakin xəstəliyi əvvəlcədən qabaqlasaq bu qədər əziyyət çəkmərik.

İlk öncə boğazımızı qıcıqlandıran ağrını hiss edən kimi:

Siqareti atırıq. Heç olmasa ilk gün üçün. Unutmayın ki, siqaret dumanı mikrobları uzaqlaşdıran nəfəs tükcüklərinin fəaliyyətini zəiflədir. Bir stəkan ılıq suya 1 çay qaşığı soda, 1-2 damcı yod - və bu məhlulla bir neçə dəfə boğazınızı yaxalayın. 1 ədəd Falimint və ya Farinqosept həbi vəziyyəti yaxşılaşdıracaq. Çoxlu miqdarda bal yeyin, insan orqanizminə gərəkli olan 24 mikroelementdən, 22 - si balın tərkibində mövcuddur.

**Nəfəs kəsən öskürək.**

Qorçiçnik. Yandırma effekti sayəsində gecəni rahat yata biləcəksiniz. Bir çay qaşığı bal və kərə yağı ilə ovxalanmaq həmçinin köməyinizə çatacaq. Banka qoymaqdan imtina edin. Son tədqiqatlara görə bankadan sonra dəri üzərində qalan qan sızaqları həmçinin daxili orqanlarda da öz izini buraxır.

**Burunun tutulması**

2-3 damcı çuğundur, aloe və ya soğan suyu nəfəsinizi açacaq. Həmçinin kartof buxarının inqalyasiyası bu məsələdə kömək edəcək sizə.

**Halsızlıq**

Sitrus meyvələr, alma yesəniz 3cü gün sonra yüngüllük hiss edəcəksiniz.

**Ümumi məlumat**

Xəstəliyin yaxınlaşdığını hiss etdikdə 2 limonun şirəsini sıxaraq balla qarışdırın və için. Gün ərzində 6-8 stəkan maye içməyinizdə fayda var, limonlu, ballı, moruqlu çay daha uyğundur. Antibiotik qəbul etmədən öncə bu tədbirləri görməyiniz məsləhətdir.

# Təbrik edirik!



Günayın 25 yaşının tamam olması münasibətilə həyat yoldaşı Ayxan, atası Niyaz, anası Nailə, qaynanası Xəzəngül, baldızları Sünay və Aygün, qardaşları Araz və Ayaz, gəlinləri Nəsibə təbrik edir, ona həyatın döngə-dolanbaclarında rəvan və rahat yollar, eniş-yoxuşlarda qəti və inamlı addımlar, həyatda uzun ömür, can sağlığı, ailə həyatında isə xoşbəxtlik arzulayırlar.

**Günay, tamam oldu 25 yaşın,**
**El-oba içində ucadır başın,**
**Səni təbrik edir qohum-qardaşın,**
**Ömrü yüz yaşında sağlam başa vur,**
**Tale qənşərinə çıxarsın uğur.**

**Sənin qismətindi xoşbəxt ailə,**
**Bölüş səadəti sən gülə-gülə,**
**Arzu qanadında yanaş sahilə,**
**Daima nəsibin xoş dilək olsun!**
**Ay Günay, ad günün mübarək olsun!**



## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin III kurs tələbəsi Səfərli Ulduz Rahim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# Millimizin üzvü "Qalatasaray"da!



17 yaşlılardan ibarət milli komandamızın üzvü Mutlu Aksu Doğan karyerasını "Qalatasaray"da davam etdirəcək.SİA-nın məlumatına görə, İstanbul nəhəngi 17 yaşlı yarımmüdafiəçini transfer edib. Bu keçidə görə "sarı-qırmızılar" millimizin üzvünün klubu "Altınordu"ya təzminat ödəməyib. Əgər istedadlı futbolçu "Qalatasaray"dan başqa kluba transfer olarsa, məbləğin 50 faizi İzmir klubuna ödəniləcək.

Gənc yarımmüdafiəçi ilk olaraq "cim-bom"un U-21 komandasının heyətində çıxış edəcək. Qış fasiləsindən sonra isə o, əsas komanda ilə məşq edəcək. Qeyd edək ki, Mutlu Aksu Doğan 2016-cı ildə 17 yaşlılardan ibarət milli komandamızın heyətində Avropa çempionatının seçmə mərhələsində iştirak edib.

# Roberto Karlos 44 yaşında baba olub




Futbol üzrə Braziliya yığmasının keçmiş müdafiəçisi Roberto Karlos baba olub. AZƏRTAC xəbər verir ki, vaxtilə "Real", "İnter" və "Anji" komandalarında çıxış etmiş 44 yaşlı keçmiş futbolçunun ikinci qızı Covannanın ilk övladı dünyaya gəlib. Körpənin adını Pedro qoyublar. Roberto Karlos öz instaqram səhifəsində yazıb: "Nəvəm Pedronun doğulması münasibəti ilə qızımı təbrik edirəm. Hər ikisinə cansağlığı və Tanrının xeyir-duasını arzu edirəm". Xatırladaq ki, cəmi üç ay bundan əvvəl - bu il iyul ayında Karlosun ikinci xanımının qızı olub. Bu, Karlosun doqquzuncu övladıdır.

# İsveçrə prokurorluğu "PSJ"nin prezidentini korrupsiyada şübhəli hesab edir



PSJ" futbol klubunun prezidenti Nasser Al-Xelayfi dünya çempionatını translyasiya etmək hüquqlarının alınması zamanı korrupsiyada şübhəli sayılır. İsveçrə prokurorluğu bu məsələ üzrə təhqiqata başlayıb. Al-Xelayfi həm də Qətərin "BeİN Sports" teleşirkətinin rəhbəridir. Məlumata görə 2018, 2022, 2026 və 2030-cu illərdə keçiriləcək futbol üzrə dünya çempionatlarının konkret ölkələrdə translyasiya edilməsi hüquqları rüşvət müqabilində satılmış ola bilər. Rüşvətxorluqda FİFA-nın keçmiş baş katibi Jerom Valk şübhəli bilinir. İsveçrəlilər bu təhqiqatla əlaqədar Fransa, Yunanıstan, İtaliya və İspaniyadakı həmkarları ilə əməkdaşlıq edirlər.




# "Neftçi" 2 legioneri ilə müqavilənin müddətini uzadıb

"Neftçi" PFK iki futbolçusu - İqnasio Errera və Uqo Barqas ilə müqavilənin müddətini artırıb. SİA-nın məlumatına görə, dünən hər iki futbolçu cari mövsümün sonunadək olan anlaşmanı imzalayıblar. Qeyd edək ki, həm Errera, həm də Barqasla bundan əvvəl bağlanmış müqavilənin müddəti bu ilin dekabr ayında sona çatırdı.

# TFF Luçesku ilə bağlı qərar verdi

Türkiyə yığmasının baş məşqçisi Mirça Luçesku ilə bağlı yekun qərar verilib. Apasport.az saytı xəbər verir ki, Türkiyə Futbol Federasiyası (TFF) rumıniyalı çalışdırıcını postunda saxlayıb. "Ay-ulduzlular" dünya çempionatının final mərhələsinə vəsiqə qazana bilmədiyinə görə, Luçeskunun vəzifəsindən ayrılacağı haqda xəbərlər yayılmışdı. Lakin federasiya rəhbərliyi avqustda müqavilə imzaladıqları mütəxəssislə əməkdaşlığı davam etdirməyi lazım bilib. Məlumatı təcrübəli çalışdırıcının agenti Arkadi Zaporojan da təsdiqləyib: "Türkiyə Futbol Federasiyası Luçeskunun vəzifəsində qalacağını rəsmi şəkildə açıqladı".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**